Günəş Şərqdən doğur!
№ 58 (5339), 2021-ci il
Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az 6 aprel 2021-ci il (çərşənbə axşamı)



## Daha iki general həbs edildi

Hər iki şəxs Baş Prokurorluğun İstintaq İdarəsində dindirilib

(Səh.5)

### Günün içindən...



## “Suyun ədalətsiz bölünməsi halları geniş vüsət alıb"

Prezident: “İcra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdi”

**”Sudan səmərəli istifadə edilməlidir”.** Bunu Prezident İlham Əliyev Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib.

(səh.2)

## Gəldilər...



İƏT Təmas Qrupu Ağdam rayonu və Gəncə şəhərinə səfər edəcək

(səh.3)

# Azərbaycan və Türkiyə ordusu yenə meydanda



**Qardaş ölkələr masada danışıqlar getdiyi vaxtda poliqonda da güc nümayişini zəruri hesab edirlər**

**6-8 aprel tarixində Azərbaycan və Türkiyə ordularının növbəti birgə təlimləri keçiriləcək.**

44 günlük müharibədən sonra Qarabağ ərazisində Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı hərbi təlimləri keçirilsə də, Türkiyə ilə birgə təlimlər ilk dəfə reallaşacaq.

(səh.8)

# Sən mutlu ol, yetər!



## Təkərli oturacaq sevimli balanın gözlərini güldürdü

(səh.8)

## Kremlin susması məntiqli deyil

“Rusiya sülhməramlı qüvvələrinin əlində ermənilərin bizə vermədikləri xəritələr var”

(səh.4)

## Rəmiş "Qurd qapısı" qəbiristanlığında dəfn olunacaq

Gülü Hüseynova: “Üç gün öncə dedi ki, məni evə apar”

(səh.8)

## Aprelin 13-ü, yoxsa 14-ü?

Ramazan ayının başlaması ilə bağlı yenə fərqli tarixlər söylənilir

(səh.8)

## Vəfat edənlər 34 nəfər oldu

Son sutkada 1 099 nəfər koronavirusa yoluxub

(səh.9)

# “Suyun ədalətsiz bölünməsi halları geniş vüsət alıb”

## Prezident: “İcra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdi”

"Sudan səmərəli istifadə edilməlidir". Bunu Prezident İlham Əliyev Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib. Dövlət başçısı vurğulayıb ki, yeni rəhbərliyin qarşısında duran vəzifələrdən biri çatışmazlıqların aradan qaldırılması, idarəetmədə müasir yanaşmanın tətbiq edilməsi, müasir texnologiyaların ölkəmizə gətirilməsidir:

”Çünki biz bundan sonra meliorativ tədbirləri, necə deyərlər, dədə-baba üsulu ilə apara bilmərik. Dünyanın bu sahədə ən müasir texnologiyaları Azərbaycana gətirilməlidir, sudan səmərəli istifadə edilməlidir. Bizdə mövcud problemlərdən biri də itkilərin böyük həcmdə olmasıdır. Bu itkilər bəzi hallarda təbii xarakter alır, amma bəzi hallarda səhlənkarlıq ucbatından baş verir. Uçotun olmaması əlbəttə ki, bizim işimizi çətinləşdirir. Ona görə tam uçot aparılmalıdır. Bizim su anbarlarımıza daxil olan və oradan çıxan suyun həcmi yaxın aylara qədər uçota alınmırdı. Düzgün təhlil aparmaq, proqnoz vermək üçün imkanımız yox idi. Ona görə itkilərin azaldılması ən vacib problemlərdən biridir”.

**Bəzi fermerlərə, bəzi kəndlərə su çatmırdı**

**Prezident bildirib ki, kənd təsərrüfatı ilə məşğul olan hər bir adam öz məsuliyyətini də dərk etməlidir:** ”Təhlil aparılarkən biz bir şeyə də rast gəldik - suyun ədalətsiz bölüşdürülməsi halları geniş vüsət alıb. Burada həm mərkəzi icra orqanları, yerli icra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdilər. Belə olan halda, bəzi fermerlərə, bəzi kəndlərə su çatmırdı. Mən göstəriş vermişdim, indi təhlil aparılır, araşdırma aparılır. Buna da son qoyulmalıdır. Su xətlərinin üzərində çoxsaylı qanunsuz birləşmələr quraşdırılmışdır. Təhlil aparılarkən biz buna da rast gəldik. Belə çıxdı ki, heç kim buna məsuliyyət daşımır, heç kim buna cavabdehlik daşımır. Buna son qoyulmalıdır. Mən göstəriş vermişdim ki, su xətləri üzrə həm vizual monitorinq aparılmalıdır, yəni yerində, eyni zamanda, müasir müşahidə sistemləri - kameralar quraşdırılmalıdır və bu qanunsuz birləşmələrə son qoyulmalıdır”.



**“Biz canımızı torpaq kanallardan qurtarmalıyıq”**

**Ölkə rəhbəri qeyd edib ki, kanalların təmiri və yenidən qurulması da önəmli vəzifələrdən biridir:** ”Sovet vaxtında çəkilmiş kanalların böyük əksəriyyəti torpaq kanallar idi. Onların böyük hissəsi bu gün də fəaliyyətdədir. Torpaq kanallar suyun istənilən həcmdə ötürülməsinə imkan vermir, itkilər, o cümlədən buna görə baş verir, eyni zamanda, torpağın şoranlaşmasına da gətirib çıxarır. Ona görə də biz canımızı torpaq kanallardan qurtarmalıyıq. Ancaq onun əvəzinə hansı texnologiyalar gətiriləcək, bunu artıq siz müəyyən etməlisiniz. Dünyanın bu sahədəki aparıcı şirkətləri ilə sıx təmaslar qurulmalıdır, iqlimi bizim iqlimimizə oxşar olan ölkələrin təcrübəsindən faydalanmalıyıq”. Dövlət başçısı qeyd edib ki, elə ölkələr var ki, orada su resursları bizimkindən də azdır, ancaq məhsuldarlıq qat-qat çoxdur: ”Ona görə bütün bunlar gərək dəqiq araşdırılsın, düzgün fəaliyyət planı tərtib edilsin, lazım olarsa, Dövlət Proqramı qəbul olunsun ki, biz bundan sonrakı illərdə meliorasiya və suvarma sahəsində dünyanın ən müasir prinsiplərini ölkəmizdə tətbiq edək”.

**“Azad edilmiş torpaqlarda bizim böyük çay resurslarımız var”**

**Dövlət başçısı vurğulayıb ki, azad edilmiş torpaqlarda bizim böyük çay resurslarımız var:** ”Bu gün azad edilmiş torpaqlarda formalaşan çaylarımız bizim əsas çaylarımızdır. Tərtərçay Kəlbəcər rayonu ərazisində formalaşır. Amma mənfur düşmən bizi Tərtərçayın suyundan məhrum edirdi. Hətta Qarabağ bölgəsinə dəfələrlə səfərim zamanı mən bu problemlə maraqlanarkən görürdüm ki, bu, böyük problemlər yaradır. Misal üçün, Tərtərin suyunu tam kəsirdilər. Tərtərçay bir çox yerlərdə demək olar ki, qurumuşdu. İndi biz Tərtərçaya qayıtmışıq, onun mənbəyinə qayıtmışıq. Bazarçay - ona Bərgüşad çayı da deyirlər, Həkəri çayı, Oxçuçay - bir çox çaylar, 10-dan çox çay orada formalaşır. Onların potensialı təhlil edilməlidir. Çayların məcrası ilə bağlı düzgün təhlil aparılmalıdır, biz bu çaylardan necə səmərəli istifadə edək. Onların bir çoxu Araz çayına axır”.

*Dövlət başçısı bildirib ki, azad edilmiş torpaqlarda su anbarlarının tikintisinə ehtiyac varmı, yoxmu, bu məsələyə də mütləq baxılmalıdır:* ”Əlbəttə ki, azad edilmiş torpaqlarda bizim ən böyük su mənbəyimiz qonşu İranla sərhəddə yerləşən Xudafərin və Qız Qalası su anbarlarıdır. Bunlar çox böyük su anbarlarıdır. Xudafərin su anbarının həcmi 1,6 milyard kubmetrdir, çox böyük su anbarıdır. Bu su anbarından istifadə etmək üçün əlbəttə ki, əlavə infrastruktur layihələri icra edilməlidir. İlk növbədə, kanallar çəkilməlidir ki, azad edilmiş torpaqlara - Zəngilan, Cəbrayıl, Qubadlı və digər bölgələrə biz bu su anbarlarından su götürüb, ondan səmərəli şəkildə istifadə edə bilək. Bu, bizim böyük potensialımızdır”.

**“Taxtakörpü su anbarı tikilməsəydi, Bakıda çox kəskin su problemi olacaqdı”**

**Prezident bəyan edib ki, Taxtakörpü su anbarı Bakının da içməli su ilə təmin edilməsində önəmli infrastruktur obyektidir.** Çünki Taxtakörpü-Ceyranbatan su kanalının çəkilməsi Ceyranbatan su anbarında suyun səviyyəsinin lazımi səviyyədə saxlanmasına şərait yaradıb: ”Əgər biz son iki ilin quraqlığını nəzərə alsaq, birmənalı şəkildə demək olar ki, vaxtilə Taxtakörpü su anbarı və su kanalı tikilməsəydi, Bakıda çox kəskin su problemi olacaqdı. Taxtakörpü su anbarından sonra Şəmkirçay su anbarı inşa edilmişdir. Beləliklə, ölkəmizin həm şimal, həm də qərb bölgələrində vaxtilə suvarılmayan on minlərlə hektar torpağa su verilmişdir. Artıq bu, özünü kənd təsərrüfatı istehsalının, məhsuldarlığın artmasında göstərir”.

**İsmayıl**



# “Ermənistan hərbi cinayətlərini davam etdirir”

### Hikmət Hacıyev: “Bu məsələni müxtəlif beynəlxalq tədbirlərdə qaldırırıq”

**“Ermənistan minalanmış sahələrin xəritəsini gizlətməklə Azərbaycana qarşı mina siyasətini davam etdirərək beynəlxalq hüquq normalarını da, beynəlxalq birlik qarşısındakı öhdəliklərini də pozur”.**

Bunu Beynəlxalq Mina Anlayışı və Mina Fəaliyyətlərinə Dəstək Gününə həsr olunmuş konfransda Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

”Beləliklə, Ermənistan Azərbaycanın dinc sakinlərini öldürməklə hərbi cinayətlərini davam etdirir. Bu məsələni müxtəlif beynəlxalq tədbirlərdə qaldırırıq. Burada insan hüquqlarının pozulması göz qabağındadır. Nəticədə azərbaycanlı əhali hələ də öz yurd-yuvalarına qayıda bilmir”, - H.Hacıyev vurğulayıb.

# Bakının vasitəçilik missiyası önə çıxır

## Qarabag savaşı Türkiyə-İsrail əməkdaşlığını da mümkün hala gətirdi



Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Vətən müharibəsində İsrail silahlarının mühüm rol oynadığını deyib. Nazir "İsrael hayom" portalına müsahibəsində bildirib ki, yüksək texnologiyalı və dəqiq zərbələr endirən İsrail silahları, xüsusən də dronlar Azərbaycanın hərbi qələbə qazanmasında böyük rol oynayıb:

”Əminəm ki, Vətən müharibəsindən sonra müxtəlif sahələrdə ikitərəfli əlaqələrimiz daha da güclənəcək və dərinləşəcək”. C.Bayramov Azərbaycanla İsrail arasında 20 sənəd layihəsinin nəzərdən keçirildiyini də vurğulayıb. Qeyd edib ki, Azərbaycanla İsrail arasında möhkəm ikitərəfli münasibətlər və yaxşı dostluq əlaqələri mövcuddur. İsrail Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub və bunu yüksək qiymətləndiririk. Yaxın və qarşılıqlı faydalı əməkdaşlığımız siyasi, iqtisadi, hərbi və digər sahələri əhatə edir.

**Azərbaycan-İsrail əlaqələrini ”Şərq”ə dəyərləndirən politoloq Məhəmməd Əsədullazadə vurğulayıb ki, Azərbaycanla İsrail arasında siyasi-hərbi əlaqələr yüksək səviyyədədir.** Analitikin sözlərinə görə, məhz İkinci Qarabağ müharibəsində İsrailin Azərbaycana siyasi-hərbi dəstəyi ikili əlaqələrin inkişafına əlavə stimul verdi: ”Yeni müqavilələrin imzalanması göstərir ki, İsrail-Azərbaycan əlaqələri daha da inkişaf edəcək. Yeni sənədlərdə hərbi əməkdaşlıq və silahların birgə istehsalı məsələsi də öz əksini tapıb. İsrail Azərbaycan üçün mühüm tərəfdaşdır və bu ölkə ilə əlaqələri mümkün mərtəbədə genişləndirmək lazımdır. Təl-Əviv və rəsmi Bakının dost münasibəti digər ölkələr üçün də nümunədir. Azərbaycan özünə dost olan iki ölkə - Türkiyə və İsrail arasında normal münasibətlərin qurulmasına da dəstək verə bilər. Qarabağ müharibəsi iki ölkənin əməkdaşlığını mümkün hala gətirdi. Həmçinin, Azərbaycanın hər iki ölkənin birgə əməkdaşlıq etdiyi bir dövlət olması rəsmi Bakının vasitəçilik önəmini artırır”.

**İsmayıl**

# Yeni səfirdən də gözləntilər böyükdür



## “Qardaş ölkə türk-müsəlman dünyasında, regionda və dünyada ideoloji gücə çevrilməkdədir”

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralın səlahiyyət müddəti başa çatıb. Prezident Rəcəb Tayyib Ərdoğanın sərəncamı ilə Cahit Bağçı Azərbaycana yeni səfir təyin olunub. Ərdoğanın sərəncamına əsasən, ümumilikdə 10 səfir geri çağırılıb, 13 ölkəyə isə yeni səfir təyin edilib. Yeni səfir Cahit Bağçı 1964-cü il iyunun 25-də Türkiyənin Çorum əyalətinin Osmancık rayonunda anadan olub.

”Orta Doğu” Texniki Universitetinin Sosiologiya fakültəsini bitirib. Doktorluq işini Böyük Britaniyanın Mançestr Universitetində müdafiə edib. Üç dönəm Çorumdan Türkiyə Böyük Millət Məclisinin deputatı seçilib. Türkiyə-Avropa İttifaqı parlament komitəsinin və NATO Parlament Assambleyasının üzvü olub. Mançester Universitetində Türk Tələbələri Dərnəyini yaradıb. Avropa İttifaqı Təhsil və Gənclik Proqramları Mərkəzində koordinator və məsləhətçi olub. İngilis dilini yüksək səviyyədə, alman və ərəb dillərini orta səviyyədə bilir. Bağçı dövlət başçısının qərarından sonra Tvitter hesabında təşəkkür mesajı yazıb: ”Hörmətli prezidentimizin sərəncamı ilə dost və qardaş ölkə Azərbaycana səlahiyyətli səfir təyin edildim. Bizi bu cür şərəfli vəzifəyə layiq gördüyü üçün hörmətli dövlət başçımıza öz təşəkkürümü bildirirəm. Köklü dostluq və qardaşlıq ruhuyla, eşq ilə, bir arı kimi çalışacam”.

**Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral da yeni səfirlə bağlı öz düşüncələrini bəyan edib. Özoral bildirib ki, yeni səfir onlardan daha çox çalışacaq:** ”Türkiyənin Azərbaycana təyin edilən yeni səfiri Cahid Bağçı Azərbaycanı tanıyan və sevən bir həmkarımızdır. Bu günə qədər Türkiyə və Azərbaycan arasında münasibətlərinin inkişafı üçün çox çalışmışıq. Əminəm ki, yeni səfirimiz münasibətlərin inkişafı üçün bizdən daha çox çalışacaq.

**Yeni təyinatla bağlı ”Şərq”ə danışan politoloq Əhər Məmmədli bildirib ki, son illərdə Türkiyənin böyük siyasi hədəfləri formalaşıb.** Siyasi şərhçinin sözlərinə görə, qardaş ölkə yenidən türk-müsəlman dünyasında, regionda və dünyada ideoloji gücə çevrilməkdədir: ”Ona görə də Türkiyənin müxtəlif ölkələrə təyin etdiyi səfirlərin fəaliyyəti daha aktiv və genişmiqyaslı olmalıdır. Türk diplomatları öz məsuliyyətlərini, daşıdıqları yükün ağırlığını bilməlidirlər. Ələlxüsus da Azərbaycan kimi Türkiyəyə çox yaxın olan, vacib sayılan ölkələrə təyin olunmuş səfirlər Ankaranın siyasi kursuna uyğun hərəkət etməli, aparılan siyasətə öz töhfələrini verməlidirlər. Ümid edirəm, yeni səfir Türkiyə Prezidentinin və hakim AKP-nin siyasi-ideoloji kursuna tam sadiq olacaq və Azərbaycandakı fəaliyyətini bu əsaslar üzərində quracaq. Nəzərə alaq ki, Türkiyə ilə Azərbaycanın qardaşlığından narahat olanlar, yaxın əlaqələrimizi zədələməyə cəhd göstərən müəyyən qüvvələr, dairələr var. Türkiyənin Azərbaycandakı səfiri bu kimi halların qarşısını almaq üçün daim ayıq-sayıq olmalıdır”.

**İsmayıl Qocayev**

## Azərbaycanda Büdcə Məcəlləsinin hazırlanmasına başlanılıb



**Azərbaycanda Büdcə Məcəlləsinin hazırlanmasına başlanılıb.**

Bu barədə ”Hesablama Palatasının 2020-ci ildə fəaliyyəti haqqında” hesabatda bildirilir.

Hesabatda qeyd edilir ki, ümumi büdcə prosesinin tam və çevik tənzimlənməsinə imkan verən və geniş qanunvericilik bazasını özündə birləşdirən Büdcə Məcəlləsinin layihəsinin hazırlanmasına başlanılıb.

## Gəldilər...

### İƏT Təmas Qrupu Ağdam rayonu və Gəncə şəhərinə səfər edəcək



**İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Təmas Qrupuna daxil olan ölkələrin daimi nümayəndələrinin ölkəmizə səfəri başlayıb.**

Nümayəndə heyətinin Ermənistan tərəfindən törədilmiş müharibə cinayətləri ilə tanışlıq məqsədilə işğaldan azad edilmiş Ağdam rayonu və Gəncə şəhərinə səfəri baş tutacaq.

Səfər çərçivəsində, həmçinin İƏT Təmas Qrupunun nümayəndələrinin müxtəlif dövlət qurumlarında görüşləri nəzərdə tutulur.

# Diaspora işi daha çevik qurulmalıdır




### Xaricdə soydaşlarımızdan ibarət yeni nəsil jurnalist, politoloq, ekspert komandası yetişməlidir

**”Vətən müharibəsi diasporumuzun qarşısına fəaliyyət istiqamətlərini artırmaq və təkmilləşdirmək üçün yeni öhdəliklər qoyub”. Bu sözləri ”Şərq”ə açıqlamasında Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri Fuad Hüseynzadə deyib. QHT sədri bildirib ki, artıq xaricdəki soydaşlarımız daha mütəşəkkil şəkildə təbliğat və təşviqatlarını aparmalıdırlar:**

”Hər şeydən öncə, təbliğatın ideoloji hədəfləri təyin edilməlidir. Yeni təbliğat mexanizmi ideologiya əsasında həyata keçirilməlidir. Bütün bu fəaliyyətlər həm də çatışmazlıq və boşluqların aradan qaldırılmasına xidmət etməlidir. Məsələn, Vətən müharibəsi zamanı biz müşahidə etdik ki, xaricdə azərbaycanlı və azərbaycanpərəst əcnəbi ekspert azlığı var. Xüsusən, dünya mediasında sözümüzü deyən ekspertlər barmaqla sayılacaq qədər idi. Buna görə də xaricdə soydaşlarımızdan ibarət yeni nəsil jurnalist, politoloq, ekspert komandası yetişməlidir. Bu iş uzunmüddətli strategiya əsasında aparılmalıdır. Yəni bu gün görülən iş gələcək üçün hesablanmalıdır. Bu baxımdan, xaricdə böyüyən gənclərimizin də universitetlərdə müvafiq istiqamətlər üzrə ali təhsil almasına, yaşadıqları cəmiyyətin ictimai-siyasi həyatda fəal olmasına ciddi diqqət yönəldilməlidir. Belə olduqda, onlar ali məktəbi bitirdikdən sonra potensial jurnalist, politoloq olacaqlar. Gənclərimiz, eyni zamanda beyin mərkəzləri ilə işləməli və ya özləri belə bir mərkəz yaradıb həmrəy şəkildə fəaliyyət göstərə bilərlər. Bunun üçün xaricdə yaşadıqları cəmiyyətə inteqrasiya olunan, amma assimilyasiya olmayan gənclər ordusu yaradılmalıdır. Onlar Azərbaycanın xaricdə siması olaraq yaşadıqları ölkələrin media ulduzlarına çevrilməlidirlər”.

**F.Hüseynzadə vurğulayıb ki, dünya mediasında Azərbaycanın mövqeyini müdafiə edən əcnəbi politoloq və ya ekspertlərdə də Azərbaycana maraq artırılmalıdır:** ”Xaricdəki soydaşlarımız belə insanların tapılması və əməkdaşlıq çərçivəsində iş görülməsini özlərinin fəaliyyət planlarına aid edə bilərlər. Biz Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyi olaraq bu istiqamətlərdə də işimizi aparırıq. Bundan sonra daha da aktiv şəkildə istər xaricdəki gənclərimizin fəallığı, istərsə də Azərbaycanın əcnəbi dostlarının artması yolunda fəaliyyətimizi davam etdirəcəyik. Qeyd etməliyəm ki, pandemiya və postpandemiya dövrü dünyanı yeni dəyişən reallıqda yaşamağa öyrədir. Diasporumuz da bütün hallarda komanda ruhunu itirməməlidir. Yeni şəraitdə fəaliyyət standartlarını inkişaf etdirməlidir”.

**İsmayıl Qocayev**

### Sabir Məmmədli: “Onlar məlum razılaşmanın tələblərini yerinə yetirmir”



# “Qarabağda rus hərbi administrasiyası formalaşır!”

"Qarabağda rus hərbi administrasiyası formalaşır!". Bunu BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli deyib. O, "Şərq"ə açıqlamasında bildirib ki, mövcud vəziyyətdə hələ də rahat nəfəs almaq olmaz:

“Xankəndi və ətraf ərazilərdə rus-erməni işğalı dərinləşməkdə davam edir. Terrorçu rejim öz mövcudluğunu qorumağa çalışır. Ermənistan dövlət büdcəsindən Qarabağda tikintiyə 200 milyon dollar ayırır.

Qondarma rejim bu ərazilərdə ermənilər üçün 5 mindən artıq evin inşasını planlaşdırır. Ermənistanın hökumət üzvləri həyazıscasına Xankəndinə gəlib-gedirlər.

Qatı cinayətkar və terrorçubaşı Araik Arutyunyan erməni könüllü batalyon üzvlərini gizli şəkildə Xankəndinə gətirir və təlimfetmə şousu yaradır. Çağırışçılar hərbi xidmətə cəlb edilir.

Revanşist bəyanatlar verilir. Laçında ermənilər üçün məktəb, yaşayış evləri təmir edilir. Ermənistanın Mehri kommunikasiya dəhlizinin açılmasını uzadır. Bütün bu hadisələr Azərbaycan ictimaiyyətində böyük narahatlıq yaradır”.

**S.Məmmədlinin fikrincə, düşmən təxribatlarının qarşısında operativ və konkret addımlar gərəkdir:** ”Rusiya sülhməramlılarının bütün addımları Qarabağda öz mövcudluqlarının möhkəmlənməsinə yönəlib. Onlar məlum razılaşmanın tələblərini yerinə yetirmir, yalnız erməni qəsbkarlarının istəklərini təmin edir, Xankəndi və ətraf ərazilərdə faktiki olaraq rus hərbi administrasiyasının formalaşması ilə məşğul olurlar.

Davamlı olaraq Rusiya rəsmiləri erməni hərbçilərlə tədbirlər keçirir, Rusiyanın MTS mobil rabitə şirkəti Xankəndi və ətraf ərazilərdə Azərbaycanın razılığı olmadan fəaliyyət göstərir, rus fondu - ”Doktor Liza” ermənilər üçün müxtəlif humanitar yardımlar təşkil edir. İkinci bir tərəfdən isə məcburi köçkünlərimizin doğma yurd-yuvalarına qayıtması prosesi gecikir.

Şuşa sakinləri qısa müddətdə öz evlərinə yerləşdirilməli və eyni zamanda digər azad olunmuş rayonlarımızda məskunlaşma prosesi həyata keçirilməlidir. Əsla gecikmək olmaz”.

**Kənan Novruzov**

# Kremlin susması məntiqli deyil

## "Rusiya sülhməramlı qüvvələrinin əlində ermənilərin bizə vermədikləri xəritələr var"

Minalar müharibələrin gedişində və postmüharibə dövründə ən böyük təhlükə hesab olunur. Hərbi sahə üzrə bəzi xüsusi qaydalar var ki, bunlardan biri də minalanmış ərazilərin mütləq şəkildə xəritələrinin tərtib olunmasıdır. Həmin xəritələrdə minalı ərazilər barədə məlumatlar yer alır. Bəzən münaqişə tərəfləri düşmənçilik siyasətini davam etdirərək, müharibə yekunlaşandan sonra bu xəritələri verməkdən imtina edirlər.

Yaxud da təqdim olunan xəritələr minalı ərazilərin real mənzərəsini əks etdirmir. 44 günlük Vətən müharibəsi ilə ərazi bütövlüyünü bərpa edən Azərbaycan da oxşar problemlə üz-üzə qalıb. Hərbi əməliyyatların yekunlaşmasından aylar keçməsinə baxmayaraq, Ermənistan xəritələri verməkdən boyun qaçırır. Yerevan hökuməti bununla sülh prosesinə mane olmaqla yanaşı, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdış prosesini ləngitməyə çalışır. İndiyədək işğaldan azad edilmiş ərazilərdə xeyli sayda mülki insanın və hərbiçinin həlak olması faktı üzrə cinayət işi açılıb. Son məlumatlara görə, üçtərəfli bəyanat imzalandığı vaxtdan bugünədək işğaldan azad olunmuş ərazilərimizdə mina partlaması nəticəsində aralarında 14 nəfəri mülki şəxs olmaqla, 20 nəfər vətəndaşımız həlak olub. Eyni zamanda, 85 vətəndaşımız ağır yaralanıb. Prezidentin köməkçisi Hikmət Hacıyev bildirib ki, mina xəritələrinin verilməməsi regionda sülh və etimadın qarşısını alır. Həm də mülki əhaliyə təhlükələr yaradır. H.Hacıyev qeyd edib ki, mülki əhali minaların hədəfi olmamalıdır: "Beynəlxalq humanitar hüquqa əsasən Ermənistan Azərbaycanın mülki əhalisinin hüquqlarını kobud şəkildə pozur. Ermənistan həmçinin beynəlxalq qanunları pozaraq mina xəritəsini Azərbaycana təqdim etməkdən imtina edir. Minalar Azərbaycan əhalisinə qarşı qırğındır və işğaldan azad edilmiş ərazilərin bərpasınıləngidir".



**Ermənistanın təxribatçı davranışını "Şərq"ə təhlil edən AMİP sədri Arzuxan Əlizadə deyib ki, ermənilər Azərbaycana qarşı düşmənçilik mövqeyini israrla davam etdirir.** Partiya rəhbəri vurğulayıb ki, Yerevan tərəfi konkret şəkildə 10 noyabr üçtərəfli Bəyanatının müddəalarını pozur: "Ermənistanda revanşist fikirlərin ardı-arxası kəsilmir. Hətta rus sülhməramlılarının Qarabağa daşıdığı ermənilər də müharibə ritorikası ilə çıxış edirlər. Əslində Ermənistanın xəritəni verməməkdə israr etməsinin səbəbləri və çirkin məqsədi bizə bəllidir. Düşmən ölkə həm regional əməkdaşlıq prosesini uzatmağa çalışır, həm də Azərbaycan tərəfində itkilərin sayının çoxalmasını arzulayır. Bəs, Rusiyanın səsi niyə çıxmır?! Qarabağın dağlıq hissəsi "sülhməramlı" hesab edilən rus hərbçilərinin məsuliyyətindədir. 10 noyabr Bəyanatının altında Rusiya rəhbərinin imzası var. Minalanmış bölgədə xidmət göstərən Rusiya sülhməramlılarından xəritələrlə bağlı bugünədək heç bir məntiqli açıqlama gəlməyib. İndiyə qədər ancaq Azərbaycan vətəndaşları işğaldan azad edilmiş ərazilərdə minalara düşüblər. Ötən müddət ərzində rus hərbçilərindən minaya düşərək həlak olan yoxdur. Səbəbi odur ki, Rusiya sülhməramlı qüvvələrinin əlində ermənilərin bizə vermədikləri xəritələr var".

**A.Əlizadənin fikrincə, Qarabağda minalanmış ərazilərin xəritələri həm Ermənistan Ordusunda, həm separatçılarda, həm də Rusiya Silahlı Qüvvələrində mövcuddur:** "Ermənistan Rusiyanın forpostu olub və Kremlin icazəsi olmadan hansısa hərbi əməliyyatı icra etməyib. Ona görə də xəritəni ermənilərlə yanaşı, Rusiyadan da tələb etməliyik. Qarabağdakı rus hərbçiləri deyirlər ki, qısa vaxt ərzində öz məsuliyyət dairələrində olan ərazilərin böyük hissəsini minalardan təmizləyiblər. Bu faktın özü sübut edir ki, Rusiya tərəfində minalanmış əraziləri əks etdirən dəqiq xəritələr var. Əks halda, bu qədər qısa zamanda, özü də itki vermədən ərazilərin təmizlənməsini necə izah etmək olar?! Belə görünür ki, xəritələrin verilməməsi ilə bağlı Yerevanla Moskvanın maraqları üst-üstə düşür".

**İsmayıl Qocayev**

# "Azərsu"nun su itkisi dünya rekordudur

## Elçin Bayramlı: "Ölkədə dövlət büdcəsindən ən çox pul ayrılan, ən çox daxili və xarici borcu olan dövlət təşkilatı "Azərsu"dur"

Məlum olduğu kimi Prezident İlham Əliyevin sərəncamı ilə Əhməd Əhmədzadə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilib. Dövlət başçısının digər sərəncamına əsasən, Zaur Rauf oğlu Mikayılov quruma yeni rəhbər təyin olunub. Xatırladaq ki, 76 yaşlı Ə.Əhmədzadə 2006-cı ildən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri idi. Yeni sədr Zaur Mikayılov ali təhsilini Türkiyənin Boğaziçi Universitetində alıb.



O, 2015-2016-cı illərdə "Paşa İnşaat"da, 2016-2018-ci illərdə isə "Agro Supply MMC"nin direktoru vəzifəsində çalışıb. Bundan başqa 2009-2015-ci illərdə "Port Baku"nun baş meneceri olmaqla yanaşı, bir sıra yüksək vəzifələri icra edib. Həmçinin, "Azərbaycan Supermarket MMC"nin direktoru vəzifəsində işləyib. Xatırladaq ki, sözügedən strukturun fəaliyyəti, ümumiyyətlə, ölkəmizdə su təsərrüfatı və suvarma sistemləri ilə bağlı ciddi narazılıq var idi. Həm içməli suyun, həm də əkin sahələrinin suvarılması sahəsində mövcud olan əhəmiyyətli nöqsanlar, çatışmazlıqlar mütəmadi mediada müzakirə olunurdu. Hətta Prezident İlham Əliyev də zaman-zaman məsələ ilə bağlı narazılığını dilə gətirib. Dünən Zaur Mikayılovu qəbul edən dövlət başçısı qurumun yeni rəhbərinə mühüm tapşırıqlarını verib. Ölkə rəhbəri qeyd edib ki, Azərbaycanda su ehtiyatlarından səmərəli istifadə olunmalıdır: "Sizin qarşınızda duran vəzifələrdən biri çatışmazlıqların aradan qaldırılmasıdır. İdarəetmədə müasir yanaşmanın tətbiq edilməsidir, müasir texnologiyaların ölkəmizə gətirilməsidir. Çünki biz bundan sonra meliorativ tədbirləri, necə deyərlər, dədə-baba üsulu ilə apara bilmərik. Dünyanın bu sahədə ən müasir texnologiyaları Azərbaycana gətirilməlidir, sudan səmərəli istifadə edilməlidir. Bizdə mövcud problemlərdən biri də itkilərin böyük həcmdə olmasıdır. Bu itkilər bəzi hallarda təbii xarakter alır, amma bəzi hallarda səhlənkarlıq ucbatından baş verir".

**"Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı "Şərq"ə vurğulayıb ki, Prezident bir il öncə də müşavirədə su təsərrüfatındakı nöqsanları sərt tənqid edərək bu sahənin rəhbərlərinə xəbərdarlıq etmişdi.** Ekspertin sözlərinə görə, xəbərdarlıqdan nəticə çıxarmayan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbəri vəzifədən azad olundu: "Ölkədə dövlət büdcəsindən ən çox pul ayrılan, ən çox daxili və xarici borcu olan dövlət təşkilatı "Azərsu"dur. Amma ayrılan milyardlara baxmayaraq, bu sahədə ciddi tədbirlər görülməyib və problemlər getdikcə artıb. Nəzərə alaq ki, qarşıdan qlobal quraqlıq və su böhranı gəlir, biz isə su ehtiyatlarına görə çox zəif ölkəyik. Üstəlik, bu su ehtiyatının 70 faizi ölkə sərhədlərindən kənar mənbələrdən formalaşır. Qarşıda bizi necə problem gözlədiyini dərk edə bilərik. Hətta bir çox nüfuzlu ekoloqlar və qlobal mərkəzlər yaxında su müharibələrinin baş verəcəyini proqnoz edirlər. Belə vəziyyətdə bu sahəyə məsul orqanlar və onların rəhbərləri çox əvvəldən ciddi tədbirlər görməli, mümkün ehtiyatlardan səmərəli istifadə etməli, yeni mənbələr tapmalı və istifadəyə verməli idilər. Halbuki, bununla bağlı çox az iş görüldü. Uzun illərdir təklif edirdik ki, alternativ su mənbələri və ehtiyatları ilə bağlı ciddi işlər görülməlidir. Mümkün olan yerlərdə çox sayda artezian quyuları qazılmalı, dəniz kənarında su şirinləşdirici zavodlar tikilməli, su itkisi minimuma endirilməlidir. İsrafçılığın qarşısı alınmalı və su ehtiyatlarının effektiv idarə edilməsi üçün sistem qurulmalıdır. Lakin bunların heç biri həyata keçirilməyib. Bir neçə xırda işlərlə kifayətləniblər. Milyardlarla vəsait havaya sovrulub, daha doğrusu, kimlərinsə cibinə axıb".

> **"İsrafçılığın qarşısı alınmalı və su ehtiyatlarının effektiv idarə edilməsi üçün sistem qurulmalıdır"**

**E.Bayramlı vurğulayıb ki, keçən yayda bu təhlükənin ilk simptomlarını gördük**: "Əsas mənbəyimiz olan Kür çayı tarixdə ilk dəfə geriyə axdı, indi də çayda su çox azdır, quruyub yoxa çıxmaq üzrədir. Suvarmada yaradılan problemlər səbəbindən ölkədə məhsul əkib-becərənlər azalır və idxaldan asılı vəziyyətə düşürük. Hazırda bazar-dükanda yerli meyvə-tərəvəzin qiymətinin baha, xaricdən gətirilənlərin ucuz olması bunu sübut edir. Əhalinin içməli su təminatı da həm keyfiyyətcə, həm kəmiyyətcə aşağı səviyyədədir. Məsələn, bizim evdə şəbəkə suyunun TDS dəyəri 750-dən çoxdur. Bu artıq içməli su deyil, texniki sudur. Üstəlik, müxtəlif ərazilərdə tez-tez su kəsilmələri olur. "Azərsu"da su itkisi bəzi hallarda 40-50 fazə çatır ki, bu da dünya rekordudur. Bu qədər su hara, necə itə bilər? Əlbəttə, su itmir, sadəcə, "lazımi yerlərə" qeyri-leqal yollarla ötürülür. Günah isə əhalinin üzərinə atılır, halbuki, suyu əhali israf etmir. İsraf edənlər istehsal müəssisələri, şirkətlər, restoranlar və s. kommersiya obyektləridir. Onlara sayğacdan kənar böyük həcmdə su verilir və yaşıllıqların suvarılması adı ilə "oformit" olunur. Nəticədə su təsərrüfatı zərərlə işləyir və bunu əhalinin hesabına kompensasiya etmək üçün qiymət 2 dəfə, yəni 100 faiz artırılır. Bina həyətlərində, məhəllələrdəki su krantlarını bağladılar və ağaclar qurumağa başladı. Hesab edirəm ki, günahkarlar cəzalandırılmalı, dövlətə dəyən zərər geri qaytarılmalı, iş başına peşəkar və vicdanlı kadrlar gətirilməlidir. İşğaldan azad edilmiş ərazilərimizdəki su mənbələri ümumi ehtiyatlarımızın təxminən 30 faizini təşkil edir ki, bu, çox böyük rəqəmdir. Bu ehtiyatlardan səmərəli istifadə olunmalıdır. Su birbaşa milli və dövlət təhlükəsizliyi məsələsidir".

**İsmayıl Qocayev**

# Xankəndiyə hərbçilərin və silahların daşınması gərginliyə xidmət edir

## “Rus generalın Qarabağa gəlişi xoş niyyətin göstəricisi sayıla bilməz”



"Ermənistandan Xankəndiyə səfərlərin dayanmaması bizim narahatlığımızı artırır". Bu barədə Azərbaycan Yüksəliş (AY) Partiyasının sədri Anar Əsədli deyib. Partiya rəhbəri bildirib ki, son vaxtlar Rusiya və Ermənistan hərbi rəhbərlərinin Qarabağda görüşləri intensivləşib:

"Ən son Rusiya müdafiə nazirinin müavini Dmitri Bulqakov Qarabağa səfər etdi. Səfərdə məqsəd Rusiya sülhməramlıları üçün nəzərdə tutulan 150, 250 nəfərlik 25-ci modul şəhərciyinin açılışında iştirak etməkdir. Amma bu, sadəcə görüntüdür. Rusların burada "sülhməramlı" adı altında lövbər salması imperialist xəyallarını gerçəkləşdirmək niyyətindən başqa bir şey deyil. 1960 nəfərlik kontingent üçün beş mindən çox yerlik şəhərciyin salınması xalqımızı narahat etməyə bilməz. Digər tərəfdən, rus general Qarabağa Ermənistandan keçibsə, bu, ərazi bütövlüyümüzə hörmətsizlik sayıldığından, ilk sərt reaksiyanı Xarici İşlər Nazirliyi verməli idi. Onların "nümunəsi" Müdafiə Nazirliyini də susma mövqeyində saxladı. Bu, yolverilməzdir. Onsuz da rus sülhməramlılarının xoşməramlı olmayan fəaliyyəti Azərbaycan dövlətinin də haqlı narazılıqları ilə müşayiət olunur".

**A.Əsədliyə görə, məsələ rus generalın Qarabağa hansı marşrutla gəlməsidir:** "Bulqakov Azərbaycan ərazisindən keçərək Qarabağa gəlibsə, o zaman narahatlığa ciddi əsas yoxdur. Çünki bizim əsas tələbimiz, Azərbaycanın əsas gözləntisi Qarabağa, Xankəndiyə gediş-gəlişin bizim ərazimiz vasitəsilə olmasıdır. Ermənistandan oraya gedilməsi ciddi problemdir və biz də haqlı olaraq, bu narazılığımızı dərhal Rusiya sülhməramlılarının rəhbərliyinə çatdırırıq. Əgər general Ermənistandan keçibsə, bu, Azərbaycanın ərazi bütövlüyünə açıq-aşkar hörmətsizlikdir. Bəyanatdan kənar amillər Azərbaycan və Türkiyə ilə razılaşdırılmalıdır. Digər tərəfdən, Laçın dəhlizi vasitəsilə Ermənistandan Xankəndiyə hərbçilərin və silahların daşınması, Xankəndidəki separatçıların yürüş keçirməsi, rus dilinin separatçı qurum tərəfindən "dövlət dili" elan edilməsi və s. amillər gərginliyi artırmağa xidmət edir. Bütün bunlardan sonra bir də Bulqakovun gəlişi, 25-ci modul şəhərciyin açılışı xoş niyyətin göstəricisi sayıla bilməz".

**İsmayıl**

## Daha iki general həbs edildi

### Hər iki şəxs Baş Prokurorluğun İstintaq İdarəsində dindirilib



**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) sabiq idarə rəisləri, generallar Mövlan Şıxalıyev və Nizami Şirinov saxlanılıb.**

Hər iki şəxs Baş Prokurorluğun İstintaq İdarəsində dindirilib. Daha sonra Nəsimi rayon Məhkəməsi tərəfindən hər iki general barəsində həbs qətimkan tədbiri seçilib.

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumatda bildirib ki, yaxın vaxtlarda məsələ ilə bağlı ictimaiyyətə ətraflı məlumat veriləcək.

## Koçaryan parlament seçkilərinə qatılacaq

**Ermənistanın sabiq prezidenti Robert Koçaryan növbədənkənar parlament seçkilərində iştirak edəcəyini elan edib.**

Trend-in məlumatına görə, o, bu barədə Rusiyanın Birinci kanalında yayımlanacaq "Pozner" verilişində deyib.

O bildirib ki, seçkilərdə partiyalar blokunun başçısı kimi iştirak edəcək. Hələlik, bloka hansı partiyaların daxil olacağı barədə məlumat verilməyib.

Qeyd edək ki, erməni KİV-ləri həmin partiyalardan birinin "Daşnaksutyun" partiyasının ola biləcəyi deyilir.

# Ukraynaya qarşı yeni həmlələr gözlənilir

## Nurlan Qələndərli: “Ukrayna yenidən Qərb və Rusiya arasındakı geosiyasi mübarizənin episentrinə çevrilib”



Son günlər Ukrayna və Rusiya arasında gərginlik artmaqdadır. Xarici KİV-in yaydığı məlumatlara əsasən, ötən gün Ukraynanın Donbas vilayətində vəziyyət yenidən gərginləşib və Rusiya sərhədə əlavə hərbi birliklər cəmləyib. Bütün sərhəd boyu mövqelərə snayperlər və kəşfiyyat qrupları yerləşdirilib. Ukrayna prezidenti isə NATO-nu hava hücumundan müdafiə etmək üçün birgə döyüş təliminə başlamağa çağırıb.

*"Şərq" olaraq Ukrayna və Rusiya arasında yaşanan gərginlik barədə politoloq Nurlan Qələndərli ilə söhbətləşdik. Müsahibəni təqdim edirik:*

**- Nurlan bəy, hazırda dünya gündəminin əsas müzakirə mövzularından biri Rusiya-Ukrayna cəbhəsində müşahidə olunan hərbi-siyasi gərginlikdir. Bu barədə nə deyə bilərsiniz?**

- Bəli, hazırda bəhs olunan istiqamətdə yeni hərbi-siyasi hərəkətlənmələr müşahidə olunur. Tərəflər müxtəlif bəyanatlar səsləndirir. Məsələni fərqli rakursdan qlobal ictimai rəyə təqdim edirlər. Ekspertlərin üzərində durduqları nüans isə xeyli müddət əvvəl bu ölkə daxilində alovlandırılmış separatizm ocağının söndürülməsi cəhdləri ilə bağlı məsələdir. Əlbəttə, cərəyan edən proses lokal - məhəlli xarakter daşımır. Strateji tədqiqat mərkəzlərinin araşdırma və analitik materiallarında da əks olunduğu kimi, Ukrayna yenidən Qərb və Rusiya arasındakı geosiyasi mübarizənin episentrinə çevrilib. Söyləmək olar ki, beynəlxalq aləmin böyük hissəsiqla izlədiyi bu hadisələr dünyanın yenidən nizamlanması, Şərqi Avropa cəbhəsinə aid mürəkkəb proseslərin tərkib hissəsidir.

**- Ümumiyyətlə, qlobal güc mərkəzlərinin Ukrayna üzərindən strateji rəqabətə girməsi hansı amillərlə əlaqədardır?**

- Ukrayna həm təbii-coğrafi və siyasi sərhədlərinə, həm iqtisadi-siyasi resurslarına və təsir mexanizmlərinə, həm də strateji önəminə görə qlobal aktorların planlarında yer alan ölkələrdəndir. Klassik geosiyasi konsepsiyalarda ifadə olunduğu kimi, "heartland" *(dünyanın qəlbi-idarəetmə məntəqəsi)* önəmi kəsb edən nöqtələrdən olan Şərqi Avropada, beləliklə də, Avrasiyada möhkəmlənmək üçün dünyanı idarə edən güclər Ukraynanı uzunmüddətli strateji tərəfdaşa çevirmək, yaxud özünə tabe etmək uğrunda gərgin mübarizə aparırlar. Yeni geostrateji planlarda ifadə edilən "Şərqi Avropada üstün olan böyük ölçüdə Avrasiyaya hakim olacaq, Avrasiyanı idarə edən isə dünyanı idarə edəcək" strateji prinsip Ukrayna üzərindən baş verən proseslərin fonunda özünü göstərir. Bu gün Ukrayna faktiki olaraq Qərb və Rusiyanın geostrateji savaşının hərbi-siyasi plasdarmını təşkil edir. Təbii ki, bu, təsadüfi deyil...

**- Ayrı-ayrı məqamlarla bağlı bir az dəqiqləşdirmə aparmağınızı istəyərdik. Konkret olaraq bu, ölkənin Rusiya üçün geostrateji əhəmiyyəti nədən ibarətdir?**

- Avropa ilə Asiyanı birləşdirən Ukrayna Rusiya üçün Avropa və Qara dənizdə möhkəmlənmək baxımından əhəmiyyətli strateji limandır. Xəzər-Qara-Baltik dənizi hövzəsində strateji balans və təhlükəsizlik sistemi formalaşdırmaq, bu bölgədə əks-güclərin - Qərbin mövqeyini - müqavimət gücünü "sındırmaq", eləcə də Şərqi Avropaya doğru nüfuz-təsir dairəsini genişləndirmək baxımından Ukrayna faktoru Rusiya üçün çox önəmlidir. Belə ki, Qara dənizdə geniş miqyasda "siyasi lövbər" salmaq üçün imkanlar yaradan biri məhz Ukraynadır. Moskva Kiyevi özünün tərəfdaşına çevirməyə və ya tabe etməyə çalışmaqla Qara dənizdə və dənizaşırı ərazilərdə böyük ölçüdə nəzarəti öz əlinə almağa çalışır. Bu amil, həmçinin Rusiyaya geosiyasi yayılmanın əhatə dairəsini olduqca genişləndirməyə imkan verir. Bir sözlə, Ukraynasız Rusiya Avrasiyaçılıq konsepsiyasını reallaşdıra bilməz. Rusiya bu amili xüsusi olaraq nəzərə alır və müxtəlif vasitələrlə Kiyevi özünün "təhlükəsizlik çətiri"nin altına salmağa cəhd göstərir.

**- Bəs, Qərbin bu ölkəyə yönəlik strateji yanaşması barədə nə düşünürsünüz?**

- Əvvəla qeyd edim ki, Qərb Ukrayna kimi lokomotiv aktordan vaz keçmək niyyətində deyil. Çünki ABŞ-ın və Avropa İttifaqının aparıcı aktorlarının Ukrayna ilə təmasları tamamilə "əritməsi" Rusiyanın Qara dəniz və Şərqi Avropada mövqeyinin olduqca möhkəmlənməsinə və Qərbin Moskva tərəfindən tədricən regiondan sıxışdırılmasına səbəb olar. İndi enerji təhlükəsizliyindən tutmuş müxtəlif məsələlər ətrafında Qərb Ukraynanı öz orbitində saxlamağa çalışır. Nəzərə alaq ki, Ukrayna Avropanın Rusiyadan qorunmaq üçün "müdafiə divarı"dır. Həmçinin bununla yanaşı, Avroatlantik məkanın təhlükəsizlik sistemində də önəmli ölkələrdən biridir. Elə buna görədir ki, hazırda Ukrayna Qərb ölkələrinin iqtisadi və hərbi cəhətdən yardım etdiyi ölkələrin siyahısında ön sıralardadır. Eyni zamanda, Polşanın, Bolqarıstan və Rumıniyanın Avropa İttifaqının üzvü olması Kiyevi Avropa İttifaqının "siyasi qonşu"suna çevirib. Qısası, Qərb sözügedən ölkəni bu gün geostrateji əməkdaşlıq orbitində saxlayır. Hadisələrin sonrakı axarına nəzarəti əldən vermək istəməyən Avroatlantik cəbhə strateji savaşın Ukrayna cəbhəsində Rusiyanın birbaşa müdaxilələrindən qorunmaq üçün regionda bu ölkə ətrafında siyasi təhlükəsizlik çətiri formalaşdırır.

**- Bütövlükdə hazırkı proseslər gələcək üçün nə vəd edir? Ukraynanın qarşıdakı dövrdə hansı addımları atması gözlənilir?**

- Bütün bu konseptual məsələləri və hazırkı reallıqları nəzərə alaraq qeyd etmək olar ki, Qərb-Rusiya qarşıdurmasının Ukrayna cəbhəsində "isti proses"lərin davam etməsi gözlənilir. Xüsusilə də, ABŞ yeni mərhələdə Rusiyanın strateji nəzarət məntəqələrində hərbi-siyasi təmizlik aparılmasında maraqlı görünür və fəal təşəbbüslərlə çıxış edir. Rusiya isə nəinki mövqe itirmək, hətta yeni həmlələr etmək niyyətindədir. Belə olan halda, Ukrayna məsələsi ətrafında da zaman-zaman eskalasiyanın müşahidə olunacağı proqnozlaşdırıla bilər. Əsas müzakirə olunan məsələlərdən biri Ukraynanın bundan sonra hərbi-siyasi təhlükəsizlik kontekstində hansı fəaliyyəti həyata keçirəcəyidir. Hazırkı situasiya fonunda bu ölkənin NATO-ya inteqrasiya prosesinin güclənəcəyini proqnozlaşdırmaq olar. Ehtimal ki, rəsmi Kiyev bundan sonra yeni hərbi strategiya ilə fəaliyyət göstərəcək. Ola bilsin, ortamüddətli perspektivdə Ukrayna ilə NATO-nun aparıcı ölkələri arasında hərbi əməkdaşlığa dair sazişlər imzalansın. Yeni mərhələdə regionda Ukraynanın Avropa İttifaqının siyasi və iqtisadi cəhətdən aparıcı dövlətləri ilə strateji yaxınlaşması və yeni işbirliyi platformalarının yaradılması da müşahidə edilə bilər.

**Aynurə Pənahqızı**

# Donbasda gərginlik: siyasi dalandan sonra "silahlar danışır"



**Ayyət Əhməd**

Ukraynanın şərqində - Donbasda atəşkəsin pozulması halı intensivləşib. Artıq beynəlxalq ictimaiyyət də bu siyasi dalan barədə həyəcan təbili çalıb. 7 ildir Donbasda atəşkəsin pozulması halı gün ərzində 30-dan az olurdu. 2020-ci ilin 27 iyulunda atəşkəsin pozulmasında nisbətən aktivlik baş verdi. 2021-ci ilin yanvarından bu yana isə məlum vəziyyət təhlükəli məcraya qədəm qoydu. Son 3 ay ərzində 19 ukraynalı əsgər həlak olub. 2020-ci ildə ümumilikdə 49 ukraynalı hərbçi separatçıların açdığı atəş nəticəsində həyatını itirib.

Bir sözlə, bölgədə "rənglər tündləşib" və vəziyyət gərgin fazaya keçib. Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) müşahidəçi missiyası istisna olmaqla, bu ərazilərə giriş məhdudlaşdırılıb. Bu da müəyyən bölgələrə keçid üçün ən böyük maneədir.

Şübhəsiz ki, rəsmi Kiyev və rəsmi Moskva bu gərginliyə görə, bir-birini qarşılıqlı şəkildə qınayır.

2021-ci ilin 1 aprel tarixində Ukrayna Prezidenti Vladimir Zelenski Rusiyanı Ukrayna ilə sərhədə hərbi truppalar yerləşdirməkdə və provokasiya riskinə dair xəbərdarlıqda ittiham etdi. Bundan başqa, Ukrayna ordusunun komandanı Ruslan Komşak bəyan etdi ki, Kremlin bu addımı Ukraynanın hərbi təhlükəsizliyinə təhdiddir: "Çünki Rusiya Ukrayna ilə sərhədə 28 min canlı qüvvə yığıb ki, onların da 2 mini peşəkar təlimçi və professional əməliyyatçıdır".

Onu da qeyd etmək yerinə düşər ki, Ukrayna sərhədində Rusiya Hərbi Hava Qüvvələrinə məxsus hərbi döyüş helikopterləri görünüb. Bu görüntüdən sonra Ukrayna Dövlət Sərhəd Agentliyinin rəhbəri Andriy Demçenko açıqlama verib:

"Tamamilə Ukrayna ilə sərhəddə deyildi, ancaq sərhəddən kənar bir bölgədə görünmüş ola bilər. Bəzi şahidlərin ifadələrinə görə, görüntülər Rusiya Federasiyasının Rostov bölgəsində qeydə alınıb".

Ukrayna prezidenti və digər səlahiyyətli rəsmilərin bu ittihamlarına rəsmi Moskvanın cavabı gecikmədi. Kremlin sözçüzü Dmitri Peskov bəyan etdi:

"Rusiya öz ərazilərinə istədiyi kimi və istədiyi qədər ordu yerləşdirə bilər. Bu, heç kəs üçün təhlükə deyil və məlum addımımız heç kimi narahat etməməlidir".

D.Peskovun bu mesajından eynəksiz də görmək olar ki, Kreml rəsmisi vəziyyəti etiraf edib. Və bu işğal faktında, eyni zamanda işğalın davam etdirilməsində, genişləndirilməsində Rusiyanın maraqlı olduğunu və təcavüzkar mövqedə dayandığını çılpaqlığı ilə nümayiş etdirib. Artıq Kreml niyyətini D.Peskovun "dili " ilə ifadə etdi və dünyaya ismarıcını verdi. D.Peskov qlobal siyasi dairə və mərkəzlərə siqnal verir ki, rəsmi Kiyev orduya "irəli" əmri verərsə, Ukrayna ilə sərhəddəki rus ordusu hərəkətə gətiriləcək və bu hal da heç kəsi narahat etməməlidir. Yəni heç bir ölkə Rusiyanın işğal faktorunu dərinləşdirməsinə müdaxilə edə bilməz.

Haşiyə çıxaraq onu da əlavə edim ki, 2014-cü ildə Ukraynada Avropaya inteqrasiya üçün başladılan Maydan hərəkatından Donbas hadisələrinə qədər uzanan müddətdə 13 min insan həlak olub. Rusiya özünü Donbasdakı separatçıların xaç atası kimi aparır. Doğrudur, onlar bəzi məqamlarda inkar etsələr də, Rusiyanın separatçılara, maliyyə, silah və canlı qüvvə ilə yardım etməsinə dair Ukrayna, eləcə də digər ölkələrin kəşfiyyat orqanlarında xeyli dəlillər var.



***

Donbasdakı gərginliklə bağlı indi dünyanı düşündürən bir sual var: Savaş gözlənilirmi?

Bəli, potensial savaş lap yaxınlıqdadır və gözlənilir. Gəlin, savaşın real olduğunu göstərən detallara nəzər salaq.

Bu həftənin cümə axşamı ABŞ Ukraynanın şərqində baş verənlərlə bağlı Rusiyaya xəbərdarlıq etdi. Rəsmi Vaşinqton bildirdi ki, təcavüz və provokasiya xarakterli hədələmə təşəbbüsündən əl çəkmək lazımdır. Rusiya lideri Vladimir Putini "qatil" adlandıran ABŞ-ın yeni Prezidenti Co Baydenlə Ukrayna lideri V.Zelenski arasında telefon danışığı baş tutub.

Bu barədə Ağ Evin mətbuat xidməti məlumat yayıb. Prezident Bayden Rusiyanın Donbas və Krımdakı təcavüzü qarşısında Ukraynanın suverenliyinə və ərazi bütövlüyünə davamlı dəstəyini təsdiqləyib. Tərəflər, həmçinin regionda demokratiyanın möhkəmləndirilməsinin vacibliyini müzakirə ediblər". "Röyters" agentliyi isə bildirib ki, Bayden telefon danışığı zamanı Zelenskiyə Ukraynaya səfər etmək istədiyini deyib.

Bütün bunlar Baydenin "əlini Ukraynanın kürəyinə qoyub" onu qorumaq niyyətində və mövqeyində olmasının aydın təzahürüdür. Heç kimə sirr deyil ki, C.Bayden hakimiyyətinin ilk aylarından Rusiyaya qarşı kəskin siyasətini ortaya qoyub və rəsmi Moskvaya sanksiyaların dozasını gücləndirib.

Bununla yanaşı, Avropaya yerləşdirilən Amerika hərbi qüvvələri isə Donbasda gözlənilən hərbi toqquşma ilə bağlı böhranlı vəziyyəti gücləndirilmiş şəkildə nəzarətdə saxlayır. Bu isə artıq maksimal həyəcan siqnalı deməkdir.

Heç kimə sirr deyil ki, supergüclər arasındakı münasibətlərin gərgin müstəviyə keçməsi dünya üçün bir nonsensdir. Məhz bu gərginliyin artması və bunun beynəlxalq rezonans doğurması dünya ölkələrini də narahat etməyə başlayıb. Bu mənada aparıcı dövlətlər vəziyyətə yeni dizayn verib, prosesləri dinc yolla konfiqurasiya etməyə çalışırlar. Məsələn, elə bu həftənin cümə günü Rusiya Prezidenti Vladimir Putin, Almaniya kansleri Angela Merkel və Fransa lideri Emmanuel Makron arasında videoformatda görüş keçirildi. Yeri gəlmişkən qeyd edək ki, bu görüşə Ukrayna prezidenti dəvət edilməmişdi. Rəsmi hesabat çox qısa oldu.

Yelisey Sarayından verilən məlumata görə, həmin görüşdə hər üç lider 2015-ci ilin fevralında imzalanan "Rusiyanın Ukraynadakı atəşkəsi sabitləşdirmək və Minsk razılaşmalarına hörmət edərək böhrandan çıxış yolu tapması üçün qətiyyətli bir öhdəlik götürməsinin vacibliyini" vurğulayıb. Amma bu görüşdə əldə olunan razılaşmanın "canına yel dəyməmiş" Kreml sözçüsü D.Peskov müxtəlif bəyanatlar səsləndirdi. Rusiyanın Ukrayna ilə sərhədə canlı qüvvə yerləşdirməsinə haqq qazandırdı.

Və bununla da məlum razılaşmanın rəsmi Moskva üçün ciddi əhəmiyyət daşımadığını ortaya qoydu. Ukraya mediasının yazdığı məlumata görə, artıq müəyyən cəbhələrdə döyüşlər başlayıb. Ukraynanın şərqində havada barıt qoxusu var. Ukrayna ordusunun Donbasda bir neçə strateji obyekti bombardman etməsinə dair məlumatlar yayılır.

Fəqət görünən odur ki, bütün bunlar Rusiyanın geri addım atacağı və savaş başlayarsa, Amerika, eləcə də Qərbi Avropanın Ukraynanın ərazi bütövlüyünün qorunması yönündə bütün hərbi, diplomatik, iqtisadi və hüquqi rıçaqları işə salacağı anlamına gəlmir. Ola bilsin, Zelenski hökuməti də buna tam əmin ola bilmir.

Ötən günlərdə Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba rəsmi Vaşinqtona belə bir müraciət ünvanlayıb: "Ukraynanın əsas gözləntilərindən biri Donbass və Krımın işğaldan azad olunması prosesində ABŞ-ın daha aktiv və ən əsası, təcili iştirakıdır". Kuleba Vaşinqtonun bu məsələni diqqətində saxlamalı olduğunu, Ukraynanın təhlükəsizliyinin həm Avropa, həm də Avro-Atlantik məkanın təhlükəsizliyi üçün vacib olduğunu vurğulayıb. Bununla da rəsmi Kiyev ABŞ və Qərbi Avropanın sonadək Ukraynanın yanında olacağına dair tərəddüdünü gizlətməyib.

Çünki ortada Rusiyanın 2008-ci ildə Gürcüstandan Abxaziya və şimali Osetiyanı, 2014-cü ildə isə Ukraynadan Krım, Donbas və digər əraziləri hərbi təcavüz nəticəsində işğal etməsi "nümunəsi" var. Bu hadisələr ərəfəsində də ABŞ və Qərb dünyası ard-arda rəsmi Moskvanın əleyhinə bəyanatlar verirdilər. Amma o bəyanatlar elə söz səviyyəsində də qaldı. Nəticədə Gürcüstan və Ukrayna itirdi. Bunlar ən yaxın tarixdə, XXI əsrdə dünyanın gözü qarşısında baş verdi. İndi rəsmi Kiyev də bu riskləri hesablamalıdır və hesablayır.

Rusiyanın istehsalçı ölkə kimi dünya silah bazarındakı rolunu və nüvə ölkəsi olmasını nəzərə alsaq, məhz indi Amerika və Avropanın aparıcı ölkələri rəsmi Moskvanın Ukraynaya qarşı əzələ nümayişinin qarşısını almağa çalışmalıdırlar. Bununla bağlı sərt sanksiyalar işə salınmalıdır. Ukrayna ərazisində Rusiyanın işğalçı planlarını yerinə yetirən separatçılara dəstək önlənməlidir.

Ukraynaya siyasi, hüquqi, hərbi və humanitar dəstək göstərilməlidir. Bütün bunlar olmadan hərbi əməliyyatlara başlamaq Ukraynanın "öz intihar kəndirinə" sabun sürtməsi deməkdir. Bir sözlə, rəsmi Kiyevi çox ağır günlər, sınaqlar gözləyir. İndi Zelenski hökuməti bütün riskləri milyon ölçüb bir biçməlidir. Ki, plasdarma çevrilmədən ərazilərini işğaldan azad edə bilsin.

***

Mövcud vəziyyətdə Azərbaycanın mövqeyinə gəlincə, diqqətə çatdıraq ki, rəsmi Bakı dəfələrlə Ukraynanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Hətta ən ali kürsüdən belə Azərbaycan bütün riskləri göz önünə alaraq separatçıların Ukrayna ərazilərindən çıxarılmalı olduğunu bildirib. Bu, belə də olmalı idi. Çünki hər iki ölkə eyni taleyi yaşayıb. Qafqazda işğala, separatizmə məruz qalan ilk ölkə məhz Azərbaycan olub.

Doğrudur, 44 günlük Vətən savaşında Azərbaycan öz ərazi bütövlüyünü tam olmasa da, (Xankəndi, Xocalı, Xocavənd , Əsgəran və Ağdərədə hələ də şanlı Azərbaycan bayrağı dalğalanmır) bərpa etdi. Bu savaş ərəfəsində də rəsmi Kiyev Azərbaycanın haqq savaşına dəstək ifadə edən bəyanatlar verdi. Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi.



## Misir Mərdanova yeni vəzifə verildi

**AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin (FRTEB) Ümumi yığıncağında AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru vəzifəsinə seçkilər keçirilib.**

Akademiyadan "Şərq"ə verilən məlumata görə, AMEA prezidentinin təqdimatına və AMEA Rəyasət Heyətinin 8 yanvar 2021-ci il tarixli qərarına müvafiq olaraq, adıçəkilən vəzifəyə AMEA-nın müxbir üzvü Misir Mərdanovun namizədliyi irəli sürülüb. Açıq səsvermə ilə AMEA-nın müxbir üzvü Misir Mərdanov AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru vəzifəsinə seçilib və təsdiq edilməsi üçün AMEA Rəyasət Heyəti qarşısında vəsatət qaldırılması barədə qərar qəbul edilib.

## May ayında 4 gün iş olmayacaq

**May ayında qeyri-iş günlərinin sayı məlum olub.**

Bu il 9 May - Faşizm üzərində qələbə günü bazar gününə təsadüf etdiyi üçün Əmək Məcəlləsinə uyğun olaraq, iş və istirahət günlərinin yeri dəyişdiriləcək, 10 may qeyri-iş günü olacaq.

Nazirlər Kabinetinin 3 dekabr 2020-ci il qərarına əsasən, bu il 13 may (cümə axşamı) və 14 may (cümə) isə Ramazan bayramıdır. Həmin günlər də qeyri-iş günüdür. Eyni zamanda 28 May - Respublika günü də iş günü hesab edilməyən bayram günüdür. Bu il mayın 28-i cümə gününə təsadüf edir. Beləliklə, may ayında bayramlarla əlaqədar 4 gün iş olmayacaq.

## Əyani tədris dayandırılıb

### Dörd şəhər, bir rayonda məktəblər bağlandı

**Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrində əyani tədris dayandırılıb.**

Bununla bağlı Təhsil Nazirliyi tərəfindən mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq qərar verilib. Belə ki, aprelin 5-dən qeyd olunan ərazilərdə yerləşən ümumi təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili başlayır. Distant tədris zamanı dərslərin "Virtual məktəb", eləcə də digər onlayn platformalar üzərindən keçirilməsi nəzərdə tutulub. Nazirlik şagirdlərə "Dərs vaxtı" teledərslərini izləməyi tövsiyə edib. Digər şəhər və rayonlarda isə tədris sanitar-gigiyenik tələblərə əməl edilməklə qismən əyani formada davam etdiriləcək.

# "Apreldə Qarabağda anti-terror əməliyyatı gözlənilir"

## Türk ekspert: "Kreml Qarabağdakı ermənilərə pasport paylayaraq orada vətəndaşları olduğu iddiasını təzyiq aləti kimi istifadə etmək niyyətindədir"



**Qarabağ müharibəsinin hərbi mənada bitməsinə rəğmən, diplomatik manevrlər səngimir. Əksinə, suallar hər ötən gün bir az da artır. Rusiya- ABŞ münasibətləri Cənubi Qafqaza necə təsir edəcək? Ermənistandakı xaotik durum nə ilə nəticələnəcək? Azərbaycan yarımçıq qalan məsələlərini hansı formada həll edəcək? Oxşar suallar təkcə bizi yox, regionla maraqlanan hər kəsi düşündürür. Politoloqlar təhlillər aparır və müxtəlif iddialar səsləndirirlər.**

*Beynəlxalq münasibətlər üzrə türkiyəli mütəxəssis, ANKASAM Araşdırmalar Mərkəzinin eksperti Doğacan Başaran mövcud "düyün"lərlə bağlı "Şərq"in suallarını cavablandırdı:*

**- Azərbaycanın qələbəsini necə qiymətləndirirsiniz?**

- Azərbaycanın sentyabrın 27-də başlayan və noyabrın 10-da başa çatan müharibədəki zəfəri bir neçə cəhətdən xarakterikdir. Belə ki, bu uğurla Azərbaycan işğal altındakı torpaqlarını azad etdi və güclü, böyük dövlət olduğunu isbatladı. Ərazi bütövlüyünü təmin edən rəsmi Bakı beynəlxalq siyasətdə daha mühüm bir iştirakçıya çevrildi. Bu, regiondakı yeni vəziyyətdən də başa düşülür. Bildiyiniz kimi, regionda Rusiya ilə İranın nüfuzu təxminən bərabərləşdi və Türkiyə ilə Azərbaycan ön plana çıxdı. Bundan əlavə, rəsmi Moskva da bu durumu qəbul edərək Cənubi Qafqazda İrəvana olan dəstəyini azaltdı. Əvəzində Ankara və Bakı ilə əməkdaşlığa hazır olduğunu göstərdi. Beləliklə, Ankara və Bakının regiondakı təsir gücü koordinasiyalı oldu. İrəvan və Tehran geosiyasi cəhətdən müharibənin məğlub tərəflərinə çevrildilər. Moskva isə yeni vəziyyətə uyğunlaşaraq yaxın ətrafındakı təsir gücünü qorumağa çalışır. Əsas məsələ odur ki, hazırkı status-kvo ilə Türkiyə və Azərbaycan bütün türk dünyasında, xüsusilə Cənubi Qafqazda aparıcı siyasi aktor oldu. Naxçıvan dəhlizinin açılması böyük siyasi nailiyyətdir. Nəticədə Türkiyə-Azərbaycan-Mərkəzi Asiya xəttindəki quru yol təsis edilmiş olur. Bu, türk dövlətlərinin inteqrasiyası üçün çox mühümdür. Əlbəttə, bu inteqrasiya prosesində iki qardaş ölkə yenə də ön planda olacaq.

**- Bildiyiniz kimi, Qarabağdakı rus sülhməramlıları açıq-aydın tərəf tuturlar. Hətta onlar üçün şəhərcik tikilir. Belə bir vəziyyətdə biz nə etməliyik?**

- Müharibədən sonra imzalanan müqavilə bir çox cəhətdən Azərbaycanın beynəlxalq mənafeyinə və milli maraqlarına uyğundur. Fəqət, rus sülhməramlılarının regiona qayıtması, rəsmi Bakı üçün narahatlıq mənbəyidir. Kremlin ənənəvi siyasətinin Ermənistanı dəstəkləməsindən ibarət olduğunu nəzərə alsaq, deməli, həqiqətən, sülhməramlılara güvənmək olmaz. Üstəgəl, Qarabağdakı erməni "dövlətində" yaşayanlara rus pasportlarının paylanmasına dair xəbərlər də narahatlıq yaradır. Rəsmi Moskvanın eyni həmləsinin Luqansk və Donetskdəki nəticəsi hər birimizə məlumdur. Ona görə də Azərbaycan situasiyaya soyuqqanlı yanaşmalı və hər prosesə hazırlıqlı olmalıdır. Buna baxmayaraq, eyni senarinin Qarabağda təkrarlanacağını düşünmürəm. Çünki Türkiyə Azərbaycanın ərazi bütövlüyünü öz ərazi bütövlüyünün təhlükəsizliyi kimi görür. Ona görə də Rusiyanın belə bir əməliyyatına icazə verməz. Həmçinin dünyadakı çoxqütblülüyü nəzərə alsaq, Rusiyanın Türkiyəyə ehtiyac duyduğu da məlumdur. Məncə, Kreml Qarabağdakı ermənilərə pasport paylayaraq orada vətəndaşları olduğu iddiasını təzyiq aləti kimi istifadə etmək niyyətindədir.

**- Xankəndi, Xocalı və Əsgəranın taleyi ilə bağlı nə düşünürsünüz?**

- 10 noyabr razılığına görə, Azərbaycan həmin əraziləri işğaldan azad etmiş hesab olunur. Həmçinin gələcəkdə bu torpaqlarda azərbaycanlılarla ermənilərin birlikdə yaşaya bilməsi təsdiq edilib. Əlbəttə, bu, iki tərəf arasında toqquşma ehtimalı yaradır. Amma türklər öz torpaqlarında yaşayan azlıqlara həmişə humanist yanaşıblar. Dinc erməni əhalisi sülh əleyhinə addım atmadığı müddət ərzində Azərbaycan hakimiyyətinin humanizmi ilə qarşılaşacaq.

**- Bəs Zəngəzur?**

- Təəssüf ki, Zəngəzurda vəziyyət bir az fərqlidir. Orada işğal davam edir. Zəngəzur coğrafi baxımdan, strateji cəhətdən mühüm yerdir. Belə ki, həmin rayon İran, Naxçıvan və Türkiyə arasında əlaqəni təmin edir. Həmçinin Naxçıvan dəhlizi ilə bağlı proseslərdə də Zəngəzur mühüm rol oynayır. Məlum razılıq sözügedən məsələdə Azərbaycanın imkanlarını məhdudlaşdırır. Lakin rəsmi Bakı məsələni diplomatik baxımdan həll etmək üçün səy göstərməlidir. Və göstərəcək. Hətta hərbi əməliyyatlar başlansa, Zəngəzurun azad edilməsi prioritet olmalıdır. Azərbaycan heç bir halda sülhü pozmuş sayılmayacaq.

**- Ermənistan hakimiyyəti xeyli vaxtdır ki, erməni silahlılarının Qarabağdan çıxarılmasından danışır. Amma hələ real nəticə yoxdur...**

- Dediyiniz kimi, Qarabağda hələ də separatçı qüvvələr var. Onların neytrallaşması zərurətdir. Bu nöqteyi- nəzərdən Azərbaycan ordusunun aprel ayında ciddi antiterror əməliyyatına başlaması gözlənilir. Bu, Azərbaycanın öz torpaqlarını terrorçulardan "təmizləməsi" kimi başa düşülməlidir. Yəni hüquqi cəhətdən haqlı əməliyyat olacaq. Rəsmi Bakının lazımi addımları atacağına inanıram.

**- Minalı ərazilərin xəritəsinin israrla bizə verilməməsi necə yozulmalıdır? Düşmənin niyyəti nədir?**

- Minalı ərazilər narahatlıq doğuran məqamlar sırasındadır. Azərbaycan haqlı olaraq həmin ərazilərin minalardan təmizlənməsi üçün xəritəni tələb edir. Lakin İrəvan hakimiyyəti qeyri-adekvat cavab verməkdədir. Azərbaycanın düşmənə təzyiq göstərməkdən ötrü məsələni Avropa Birliyi və BMT səviyyəsində müzakirəyə çıxaracağı hiss edilir. Əlbəttə, bu, çox doğru qərardır. Belə ki, Ermənistanın beynəlxalq hüququ tapdalaması, işğalları, qətliamları beynəlxalq ictimaiyyətə düzgün formada çatdırılmalıdır. Bu mənada Azərbaycanın təsirli təbliğat aparması və diaspor fəaliyyətinə güc verməsi məqsədəuyğundur. Nəticədə siz beynəlxalq ictimaiyyətin haqlı mübarizənizi daha yaxşı tanımasına nail ola bilərsiniz.

**- Hazırkı Baş nazir Nikol Paşinyan son açıqlamalarında Azərbaycanla münasibətləri loyallaşdırmaq barədə danışsa da, müxalifətin revanş iddiaları məlumdur. Belə bir vəziyyətdə yeni savaşın başlanması ehtimalını necə qiymətləndirirsiniz?**

- 10 noyabr razılığı Ermənistanı xaosa apardı. Ölkə gündəmi etirazlardan, çevriliş cəhdlərindən ibarətdir. Paşinyan müharibəni uduzan bir baş nazir kimi günahlandırılır, müxtəlif ittihamlara məruz qalır. Etirazlar çərçivəsində "Qarabağ klanı" kimi adlandırılan Robert Koçaryan və Serj Sarkisyan cütlüyü ön plana çıxır. Həmçinin müxalifətin ortaq namizədi və Rusiya ilə əlaqələri ilə tanınan Vazgen Manukyanı da unutmamalıyıq. Paşinyan devrilsə, adı çəkilən üç siyasətçidən birinin baş nazir olması ehtimalı böyükdür. Bu isə o deməkdir ki, hakimiyyət başına Rusiyaya yaxın bir adam keçəcək. Belə vəziyyət Qərbə yaxınlığına görə Paşinyanı cəzalandıran Putin administrasiyasının qərar dəyişikliyi ilə nəticələnə bilər. Beləliklə, Ermənistan cəsarətlənər. Deməyim odur ki, Ermənistanda hansısa iqtidar dəyişikliyindən sonra Qarabağda müharibənin yenidən başlanması mümkündür. Yəni Azərbaycan ordusu hər senariyə hazır olmalıdır.

**Kənan Novruzov**

---

# "Kadrlar "yaşlıdır" bəhanəsi ilə kənarda saxlanılır"

## Hüquq müdafiəçisi hesab edir ki, islahatlar aparılarkən varislik prinsipi gözlənilməlidir

"İctimai inkişaf prosesində islahatların uğurunu təmin etmək və nailiyyətlər üçün daha möhkəm bünövrənin inşası əhəmiyyətli dərəcədə varislik, təcrübə və biliklərin ötürülməsinin səmərəli konsepsiyası, mexanizmlərinin yaradılmasından asılıdır. Varislik prinsipini fəlsəfə nöqteyi-nəzərindən şərh edən Hegel qeyd edirdi ki, bütün şeylərə baxmayaraq, yeni adlandırdığımız nəsnələr özündə bu və ya digər dərəcədə əvvəlkilərin səciyyə və xüsusiyyətlərini saxlayırlar".

**Bu sözləri hüquq müdafiəçisi Əliməmməd Nuriyev deyib.**

**O, "Şərq"ə açıqlamasında ölkəmizdə aparılan islahatlardan danışdı:**

"İctimai inkişaf prosesində fasiləsizlik prinsipi məhz bu qayda ilə təmin edilir. Varisliyi və əldə edilmiş bilik, təcrübənin effektiv ötürülməsi mexanizmini yaradan cəmiyyətlər daha rəqabətə davamlı olur, ahəngdar inkişafa daha yaxşı nail ola bilirlər. Çox təəssüf ki, hazırda Azərbaycan təcrübəsində bir çox sahələrdə həyata keçirilən islahatlar, yeni təcrübələrin tətbiqində varisliyin, davamlılığın qorunması, əvvəlki bilik və təcrübənin kritik təhlil süzgəcindən keçirilərək mənimsənilməsi prosesi axsayır. Ani qərarlar, bir çox hallarda mümkün risklərin nəzərə alınmaması ilə verilən qərarlar, təşəbbüslər nəticəsində yetişməsinə böyük zəhmət verilmiş, dövlət resursları sərf edilmiş, zaman xərclənmiş kadrlar, təsisatlar bir kənara qoyulur. Onların əhəmiyyəti, verdiyi və verə biləcəyi töhfə, yeni təcrübələrin möhkəmlənməsi, bərqərar olmasında oynayacağı müsbət rol heç bir halda nəzərə alınmır. Ciddi elmi təhlilə, tədqiqatlara söykənməyən, daha çox subyektiv iradənin iradəsi olan qərarlar verilir.



*"Keçmişimizin, indimizin uğurlu nəyi varsa sahib çıxmalıyıq"*

Bu cür vəziyyət daha çox təhsil sahəsində müşahidə olunur. Təhsildə həyata keçirilən islahatlar da danılmazdır. İstər qanunvericilik, istərsə də institutsional, idarəetmə islahatları davam etdirilir. Şəffaflıq və hesabatlılıqla bağlı da müsbət yeniliklər var. Xüsusən, ali təhsil müəssisələrində bu işlər həyata keçirilir. Yeri gəlmişkən, qeyd edim ki, ali təhsil müəssisələrinin özünüidarəetmə çərçivəsini genişləndirmək zərurəti var".

Ə. Nuriyevin fikrincə, islahatlar aparılarkən varisliyin qorunması prinsipini nəzərə almaq lazımdır:

"Bu islahatlar çərçivəsində əvvəldə qeyd etdiyim kimi, kadr məsələlərində, nəsillər arasında varisliyin təmin olunmasının optimal mexanizmi tapılması diqqət mərkəzində saxlanılmalıdır. Həm idarəetmə, həm pedaqoji sahədə çox böyük təcrübə və səriştəyə malik olan, müsbət nümunələrə imza atan, reputasiyası təmiz, xaricdə təhsilə, yüksək işgüzarlıq koofisentinə malik kadrlar "yaşlıdır" bəhanəsi ilə kənarda saxlanılır.

Bu cür qərarlar konkert meyarlara görə deyil, subyektiv fikrə, çox zaman zahiri görünüş, islahat görüntüsü yaratmaq xatirinə verilir. Halbuki, həmin şəxslər hələ uzun illər gənclərimizin təhsilinə əhəmiyyətli töhfə verməyə iqtidarındadırlar.

Onlar xaricdə təhsil alıblar, zamanla gənclərdən də yaxşı ayaqlaşırlar, pedaqoji və elmi naliyyətləri peşəkar çevrələrdə şübhə doğurmur. Bu cür şəxslər, necə deyərlər, "qızıl fond"umuzu təşkil edirlər. Onlara dəyər verməklə özümüzə dəyər veririk, gənclərimiz üçün də müsbət örnəklər yaradırıq.

Onları kənarda qoymaq, süni əngəllər yaratmaq, küsdürmək yalnız və yalnız bizi, mühitimizi, elmimizi zədələyir, nəsillər arasında rabitəni qırır, doldurula bilməyən boşluq yaradır. Son vaxtlar bir neçə dəfə belə hallarla qarşılaşmışam. Şəxsən müvafiq idarəetmə instansiyalarına öz fikirlərimi çatdırmışam.

Hesab edirəm ki, bu mövzuda sosial şəbəkələrdə də müzakirə açmaqda fayda var. Bu müzakirələrin problemi diqqət mərkəzinə gətirəcəyinə və həllinə töhfə verəcəyinə inanıram. Ona da qəti əminəm ki, keçmişimizin, indimizin uğurlu nəyi varsa sahib çıxmalıyıq".

**Kənan Novruzov**

# Rəmiş "Qurd qapısı" qəbiristanlığında dəfn olunacaq

## Gülü Hüseynova: "Üç gün öncə dedi ki, məni evə apar"



**Azərbaycanın xalq artisti, tanınmış gitara ifaçısı Rafiq Hüseynov (Rəmiş) sabah dəfn olunacaq.**

Bu barədə Xalq artistinin ailəsindən məlumat verilib. Bildirilib ki, Rəmiş Yasamal ("Qurd qapısı") qəbiristanlığında dəfn ediləcək. Qeyd edək ki, R. Hüseynovun səhhətində xroniki xəstəliklərin kəskinləşməsi nəticəsində ciddi problemlər yaranmışdı. O, yanvarın 28-də Heydər Əliyev Fondunun xətti ilə Bakı Sağlamlıq Mərkəzinə yerləşdirilmişdi.

O, 1944-cü ildə Ağdam rayonunun Gülablı kəndində anadan olub.

**"İki ay danışmadı. Üç gün öncə asta səslə dedi ki, məni xəstəxanadan evə apar".**

Bu sözləri dünyasını dəyişən Xalq artisti Rafiq Hüseynovun (Rəmiş) xanımı Gülü Hüseynova jurnalistlərə açıqlamasında deyib.

"Evə aparmadım. İynələr onu yaman günə qoymuşdu. İynə görən kimi pisləşirdi. Ölüm anında yanında tək idim. Həkimləri çağırdım, gec gəldilər. O mənim balam idi. O da getdi", - deyə G. Hüseynova bildirib.

# Azərbaycan və Türkiyə ordusu yenə meydanda

## Qardaş ölkələr masada danışıqlar getdiyi vaxtda poliqonda da güc nümayişini zəruri hesab edirlər



**6-8 aprel tarixində Azərbaycan və Türkiyə ordularının növbəti birgə təlimləri keçiriləcək. 44 günlük müharibədən sonra Qarabağ ərazisində Azərbaycan Silahlı Qüvvələrinin genişmiqyaslı hərbi təlimləri keçirilsə də, Türkiyə ilə birgə təlimlər ilk dəfə reallaşacaq. Görünən odur ki, Azərbaycan və Türkiyə masada danışıqlar getdiyi vaxtda poliqonda da güc nümayişini zəruri hesab edirlər.**

Təlimin keçiriləcəyi tarix də diqqət çəkir. Məlumdur ki, bu tarixdə Ermənistanın baş naziri Nikol Paşinyan Moskvada prezident V.Putinlə görüşəcək. Mümkündür ki, kommunikasiyanın bərpa edilməsi ilə bağlı razılaşma üzrə rəsmi sənədin imzalanmasına hazırlıq gedir. Üçtərəfli qrupun Rusiyadan olan həmsədri, baş nazirin müavini Aleksey Overçukun Bakı və Yerevana səfəri, ardınca Putinlə Azərbaycan Prezidenti İlham Əliyev arasında telefon danışığı bu yöndə ehtimalı gücləndirir. Diqqətçəkən məqamlardan digəri isə təlimlərin dövlət başçısı İlham Əliyevin təsdiq etdiyi plan əsasında keçirilməsidir. Qardaş ölkə rəhbərinin dəfələrlə bəyan etdiyi kimi Türkiyə Ordusu hər daim Azərbaycanın yanındadır. Birgə təlimlər bunun ən bariz nümunəsidir və Moskva daxil digər mərkəzlərə mesajdır.

**Təlimləri "Şərq"ə şərh edən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bildirib ki, erməni tərəfi revanşist düşüncələrdən, işğalçılıq missiyasından geri çəkilmədiyi müddətcə hərbi gücün tətbiq edilməsi hər zaman gündəmdə olmalıdır. QAT rəhbərinin fikrincə, hərbi əməliyyatların başlayıb-başlamayacağı erməni tərəfinin mövqeyindən asılıdır:** "Xankəndi, Xocavənd və digər ərazilərdə hakimiyyətimizi tezliklə bərqərar etməliyik. Əgər ermənilər müvafiq sazişlərə əməl etməzsə, kimlərəsə arxayın olub yenidən müharibə iddiasına düşərsə, o halda Azərbaycan Ordusu yenidən meydana çıxacaq. Azərbaycan-Türkiyə ortaq hərbi təlimləri konkret hansısa üçüncü ölkəyə yönəlməyib. Biz haqq işimizin müdafiəsi üçün qardaş Türkiyə ilə hərbi əməkdaşlığımızı genişləndiririk. Hərbi müttəfiqimiz təkcə Türkiyə deyil, digər türk dövlətləri ilə də müdafiə sahəsində əlaqələrimiz intensivləşir. Mediada tez-tez Turan Ordusunun qurulması ilə bağlı xəbərlər yayılır. Müşahidələr göstərir ki, artıq bununla bağlı müzakirələr getməkdədir. Burada vahid komandanlıqdan daha çox türk ölkələrinin silahlı qüvvələrinin razılaşdırılmış qaydada ortaq fəaliyyətindən söhbət gedir. Turan Ordusunun nüvəsini Azərbaycan və Türkiyə silahlı qüvvələri təşkil edəcək. Ona görə də bu cür təlimlər vacibdir. Müasir müharibələrdə ən önəmli nüanslardan biri rabitə sistemlərinin, ordular arası əlaqələrin düzgün qurulmasıdır. Ortaq təlimlər davamlı olacaq. Azərbaycan-Türkiyə hərbçilərinin qarşılıqlı təcrübə mübadiləsi zəruridir. Nəzər almalıyıq ki, həm Türkiyəyə, həm də Azərbaycana qarşı təhdidlər var. Bu təhdidlərdən sığortalanmağın yolu hərbi güclərimizi cəmləşdirməkdən keçir".

**İsmayıl Qocayev**

# Sən mutlu ol, yetər!

## Təkərli oturacaq sevimli balanın gözlərini güldürdü





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 4 yaşlı Tahir Cəfərlini təkərli oturacaqla təmin edib. Bu barədə Milli Məclisin deputatı Emin Hacıyev özünün feysbuk hesabında yazıb. Deputat bildirib ki, bu, dövlətimizin fiziki məhdudiyyəti olan şəxslərə diqqət və qayğısının növbəti təsdiqidir:

"Fenilketonuriya xəstəliyindən əziyyət çəkən 4 yaşlı balaca balamız Cəfərli Tahir Məhəd oğlunun təkərli oturacaqla təmin olunması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığımız müraciət qısa müddət ərzində həllini tapmış, Nazirliyin Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən balaca dostumuz təkərli oturacaqla təmin olunub. Əlilliyi olan şəxslərin sosial təminatının, tibbi-sosial reabilitasiyasının təkmilləşdirilməsi və bu istiqamətlərdə müvafiq işlərin ildən-ilə gücləndirilməsi bir daha dövlətimizin əlilliyi olan şəxslərə diqqət və qayğısının bariz nümunəsidir".

**Mövzu ilə bağlı fikirlərini "Şərq"ə bölüşən "Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova deyib ki, ölkəmizdə sağlamlıq imkanları məhdud olan uşaqlara qayğı doğrudan da yüksək səviyyədədir.** G.Səfərova qeyd edib ki, ölkəmizdə davamlı layihələrin icrasına çox ehtiyac var: "Pandemiyadan öncə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sağlamlıq imkanları məhdud uşaqlar üçün bir sıra layihələr elan etdi. Bu layihələr həqiqətən də öz müsbət nəticələrini verdi. Lakin təəssüf ki, pandemiyanın yaratdığı səbəblər onların mütəmadi davam etdirilməsinə imkan vermədi. Düzdür, ilin əvvəlində səyyar layihələr həyata keçirdilər. İndi yenə də belə səyyar layihələr həyata keçirilməsini gözləyirik. Nazirlik mütəmadi olaraq sağlamlıq imkanları məhdud uşaqlar üçün dövlət proqramları, layihələri həyata keçirir. Hətta bir müddət öncə onlar üçün reabilitasiya mərkəzləri açmışdılar və çox gözəl də effekti olmuşdu. Qeyd edim ki, hələ pandemiyadan öncə nəinki Bakıda, bütün rayonlarda uşaqlar üçün reabilitasiya mərkəzləri, o cümlədən onlara psixoloqlar ayrılıb. Hətta xüsusi mütəxəssislər ayrılmışdı ki, onlar da həmin uşaqlarla gedib evdə də məşğul olurdular. Sağlamlıq imkanları məhdud olan uşaqlara qayğı doğrudan da yüksək səviyyədədir. Digər məsələlərdə də bunu önə çəkirlər. Məsələn, həmin uşaqlar üçün cizgi filmləri, dərs ləvazimatları da hazırlanır. Yəni bu sahədə iş gedir. Bu təşəbbüsü də çox yüksək qiymətləndirirəm. Fikrimcə, davamlı olaraq bu istiqamətdə layihələr həyata keçirilsə, bu, uşaqlar üçün çox effektli olar".

**Aynurə Pənahqızı**

# Aprelin 13-ü, yoxsa 14-ü?

## Ramazan ayının başlaması ilə bağlı yenə fərqli tarixlər söylənilir



**Ramazan ayına sayılı günlər qalır. Və yenə də suallar, fərqli tarixlər ortaya çıxır. Qafqaz Müsəlmanları İdarəsinin 2021-ci ilin aprel ayı üçün təqdim etdiyi, hicri-qəməri təqvimi ayları və gündəlik namaz vaxtları əks olunan cədvəldə builki Ramazan ayının başlanğıcı 14 aprel tarixi göstərilir.**

Yəni bu il Ramazanın 1-i aprelin 14-dür. Aprelin 13-ü isə deməli, niyyət axşamıdır. İlk imsaq aprelin 14-ü olacaq və orucluq başlayacaq. Lakin Türkiyə Diyanet İşləri Başkanlığı bu il Ramazanın aprelin 13-dən başladığını elan edib. Diyanet Başkanlığının dini günlər təqvimində isə Ramazan 2021-in başlanğıcı 13 aprel 2021-ci il, həftənin çərşənbə axşamıdır. Yəni Türkiyədə ilk oruclar aprelin 13-də saxlanılacaq. Ramazan ayının son orucu isə mayın 12-də bitəcək. Ramazan bayramı isə mayın 13-də qeyd ediləcək. Bizdə isə aprelin 14-ü başlayacaq və yəqin ki, bayramı da mayın 14-ü elan edəcəklər. Oruc tutmağa niyyətlənənlər yenə çaşbaş qalacaq.

Cədvəllərdən göründüyü kimi bu il də Ramazan ayının başlanğıcı və başa çatmasıyla bağlı artıq adət etdiyimiz gün, zaman fərqi yaşayacağıq. Bu məsələ neçə ildir, həllini tapmır. Aramızda əlimizi uzatsaq yetəcək qədər məsafə olan bir ölkə ilə Ramazan ayının başlanması tarixində nədən gün fərqi yarandığının düz-əməlli izahını kimsə verə bilmir. Aranı sakitləşdirmək üçün din xadimləri asan üsul tapıblar: "Ehtiyat vacibə görə 1 gün əvvəldən oruc tutun. Babalı bizim boynumuza. Bayramı da, özünüz bilin, kim 30 gün oruc tutubsa, bayram etsin, 29 gün tutanlar 1 gün artıq oruc saxlasın". Əladı! Babalı onların boynuna.

**Məlahət**

# Ağzımızın dadıtamı qalmadı

## Xarici sort meyvə-tərəvəzlər sonumuza cıxacaq



***Yerli sort kartoflara əhali həsrət qalıb. Satıcılar da İran kartofunu "Gədəbəy", "Tovuz" kartofu adıyla satırlar. Təkcə kartofla bağlı vəziyyət belə deyil. Görürük ki, aprel ayı gələr-gəlməz bazara giləmeyvələr çıxarılır***

Azərbaycanda xarici ölkələrə məxsus yeni kartof sortları yetişdirilir. Bu barədə Trend-ə fermer Samir Verdiyev məlumat verib. Ölkənin 6 rayonunda kartof əkini ilə məşğul olan sahibkar yalnız xarici ölkələrdən Azərbaycana məhsuldar kartof növləri gətirməklə ölkədə bu sortları inkişaf etdirir: "Hazırda 6 rayonda 340 hektar kartof sahəsi əkirəm. Əkində yerli sortlardan istifadə etmirəm. Yalnız xarici ölkələrdən yeni sortlar gətirərək yetişdirib yerli fermerlərə toxumluq kartof sortları satıram.

Məqsədim xarici sortları Azərbaycanda inkişaf etdirməkdir. Əsasən Cəlilabad, Şəmkir, Tovuz, Ağstafa, Qazax və Qəbələ rayonlarında kartof əkirik. Bu vaxta qədər xaricdən Azərbaycana 50 növə yaxın kartof toxumu gətirmişik. Onlardan 14 sort kartofu hazırda da əkirik. Digər sortlar Azərbaycan iqliminə o qədər də yararlı olmadığı üçün təkrar əkmirik. Cəlilabad rayonu ərazisində əkdiyimiz kartof sortu tezyetişən sortdur. Bu rayonda may ayında artıq kartof yığımına başlayırıq. İyun ayında Şəmkirdə, iyulda isə Tovuz və Ağstafa rayonlarında yığım başlayır. Məhsuldarlıq əsasən gecyetişən sortlarda yüksək olur". Fermer deyir ki, ötən il orta hesabla hektara 42-45 ton kartof götürüb: "Ölkə üzrə ümumi göstərici ötən il 25-30 ton olub. Bizdə isə 42-45 ton olub. Xaricdən gətirib ilk dəfə əkdiyimiz toxumda isə hətta hektara 55 ton məhsuldarlıq da əldə etmişik. Kartof sortlarını əsasən Almaniya, Hollandiya və Türkiyədən gətiririk".

Fermerlər kartof becərilməsində xarici sortlara üstünlük verir. Ona görə də bazardan mətbəximizə gətirib bişirdiyimiz kartofların nə dadı var, nə tamı. Elə bil kəpəkdi. Bu, Hollandiyadan gətirilən ətirsiz, təbii olsa da, daha çox süni gülə bənzəyən, günlərlə ev şəraitində saxlansa da, xarab olmayan Hollandiya qızılgüllərinə bənzəyir; gülsatanların yol kənarında, trasda sürücülərə satmağa cəhd göstərdiyi həmin o qızılgüllərə. Çoxumuz, "bu qızılgüldənsə, nərgiz min dəfə yaxşıdı" deyib, ətirli nərgizi bəyənirik. Digər məhsullar da belədir. Əhali yerli sortlara üstünlük verir. Amma nə edəsən ki, əhalinin fikrini, rəyini öyrənən, əhali ilə hesablaşan yoxdur. Nə sərfəlidirsə, onu əkib-becərirlər. Beləcə, xarici sortlar, istər kartof olsun, istərsə də başqa tərəvəz, yerli sortları sıxışdırıb çıxarır. Əkin sahələrindən də, bazardan da. Yediyimiz də geni dəyişmiş "GMO" məhsul olur. Sonra da dizimizə döyürük ki, niyə əhalinin immuniteti zəifdir. İmmunitet qalar adamda?!

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında kənd təsərrüfatı sahəsində təəssüf doğuran halların baş verdiyini söylədi:**

- Təəssüflər olsun ki, son zamanlar biz bir çox yerli tərəvəzlərimizdə köhnə dadları ala bilmirik. Bir çox tərəvəzlərin dadiyla yanaşı xarici görünüşü, cizgiləri və s. göstəriciləri də dəyişməkdədi. Bir vaxtlar hər hansısa xarici səfərdə dadsız tərəvəzlərlə rastlaşanda həsrətlə Azərbaycan tərəvəzlərinin dadını misal gətirərdik. Hazırda ticarət mərkəzlərində satışa çıxarılan yerli tərəvəzlərin də dadında "xarici səfər" ab-havası yaranıb. O cümlədən qeyd etdiyiniz kartof növlərində də. Təəssüf ki, fermerlər muasir dövrün tələblərinə və rəqabət mühitinin diktəsinə əsasən tez yetişən, saxlama müddəti anormal dərəcədə çox olan "biznesləşmiş" məhsulların yetişdirilməsinə üz tuturlar. Beləliklə də mərhələli şəkildə ənənəvi sort və dadlardan uzaqlaşma prosesi gedir və bununla mübarizə aparmaq alətləri müasir dövrdə yoxdur.

**İqtisadçı qeyd etdi ki, Kənd Təsərrüfatı Nazirliyi əhalinin sağlam qidalanmasını düşünərək yerli sortların yetişdirilməsində maraqlı olmalıdır:**

- Kənd təsərrüfatı sahəsində fermerlərə dövlət tərəfindən subsidiyalar ayrılır. Bu subsidiyalardan yerli tərəvəz sortlarının yetişdirilməsi üçün istifadə edilməlidir. Subsidiyalar yerli sortların becərilməsinə yönəlməlidir. Bəlkə çətindir, daha çox vəsait tələb edir, amma keyfiyyətlidir. İlk növbədə Kənd Təsərrüfatı Nazirliyi bunda maraqlı olmalıdır. Fermer gəlirini düşünür. Xarici sortlardan bol məhsuldarlıq əldə edir. Tez yetişir, bazara da tez çıxarırlar, gəlir əldə edirlər. Xarici sortları toxumluq saxlamaq da olmur. Bir il məhsul verir, növbəti il vermir. Yenidən toxum alınır. Yerli sort kartoflara əhali həsrət qalıb. Satıcılar da İran kartofunu "Gədəbəy", "Tovuz" kartofu adıyla satırlar. Təkcə kartofla bağlı vəziyyət belə deyil. Görürük ki, aprel ayı gələrgəlməz bazara giləmeyvələr çıxarılır. Çiyələk, alça, bir azdan gilas, ərik də satacaqlar. Bunlar hamısı kimyəvi maddələr hesabına tez yetişdirilən sortlardır. Bazarı tez ələ alsınlar deyə, meyvə-tərəvəzləri kal vəziyyətdə satışa çıxarırlar. Fermerlərə subsidiyalar müəyyən şərtlər daxilində verilməlidir. Məsələn, yerli sortların becərilməsi, keyfiyyətli məhsul alınması kimi şərtlər. Kənd Təsərrüfatı Nazirliyi bu məsələlərə ciddi önəm verməlidir. Hər məhsulu, hər ərzağı xaricdən idxal etməli deyilik. Özümüz də yetişdirməliyik.

**Məlahət Rzayeva**

# Vəziyyət belə davam edərsə...

## "SMS icazələr tətbiq oluna bilər"

**Ölkəmizdə koronavirusa gündəlik yoluxma və ölüm sayının artması cəmiyyətdə narahatlığa səbəb olub.** Məsələn, dünən Azərbaycanda 2021 nəfər koronavirusa yoluxub, 29 nəfər isə vəfat edib. Karantin qaydalarının sərtləşəcəyi və SMS icazələrin tətbiqinə dair müəyyən fikirlər səslənir.

Hazırda hər kəsi maraqlandıran məsələlərdən biri SMS icazələrin tətbiq olunub-olunmamasıdır.

Tibb elmləri doktoru, professor-həkim Adil Qeybulla "Şərq"ə bildirib ki, karantin tədbirlərinin sərtləşdirilməsi, o cümlədən SMS icazələrin tətbiqi epidemioloji duruma bağlı olacaq: "Vəziyyət belə davam edərsə, yəni yoluxma və ölüm sayı çox olarsa, təbii ki, karantin qaydaları sərtləşə və SMS icazələr tətbiq oluna bilər".

**Yegana**

# Vəfat edənlər 34 nəfər oldu

## Son sutkada 1 099 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1099 yeni yoluxma faktı qeydə alınıb, 647 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq" ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 34 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 271 834 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 242 293 nəfər müalicə olunaraq sağalıb, 3 711 nəfər vəfat edib, aktiv xəstə sayı 25 830 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 763, ötən müddət ərzində isə ümumilikdə 2 935 718 test aparılıb.*

# Müəllimlərə virus uşaqlardan kecir

*Cünki hec kim şagirdlərdən şübhələnmir, onların da ən cox təmasda olduqları müəllimlərdir*



Epidemioloji vəziyyətin gərgin olması ilə əlaqədar olaraq aprelin 5-dən Bakı və Azərbaycanın bir sıra böyük şəhərlərində məktəblər distant təhsilə keçib. Məktəblərdə əyani tədrisin nə zaman bərpa olunacağı bildirilməyib. Təhsil naziri Emin Əmrullayev bu barədə danışarkən bildirib ki, qarşıdakı həftələrdə nə olacağı ilə bağlı qeyri-müəyyənlik var:

"Hətta bəzi vətəndaşlarımız bu yoluxma sayında belə müəllim və şagirdlərin məktəbə getməsinin tərəfdarıdır. Amma nəzərə alaq ki, gündəlik yoluxmaların 4-6 faizi müəllimlər olur". Onun sözlərinə görə, təxminən 100-ə qədər məktəb personalı gündəlik olaraq koronavirusa yoluxur. Bunun da 80 faizi Bakı, Sumqayıt, Şəki, Gəncə və Abşeronun payına düşür. Bu isə artıq hər gün 10-15 məktəbin bağlanması deməkdir.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla niyə daha çox müəllimlərin koronovirusa yoluxması barədə "Şərq"ə danışıb:**

"Uşaqlarda bu infeksiya subklinik formada keçdiyinə görə, onlar ətrafdakılar üçün çox yoluxuculuq qabiliyyətinə malikdirlər. Çünki onlarda bu bilinmir, heç kim uşaqlardan şübhələnmir. Orta məktəblərdə də müəllimlərin ən çox təmasda olduğu şəxslər şagirdlərdir. Ona görə də müəllimlərin xəstələnmə riski olduqca yüksəkdir. Həmçinin həkimlərin və asayiş işçilərinin də virusa yoluxma təhlükəsi çox böyükdür. Onlar risk qrupuna daxil olduqları üçün vaksinasiyada bu şəxsləri nəzərə almaq lazımdır".

Həkim ev heyvanlarının da vaksinasiya olunma məsələsinə toxunub:

"Azərbaycanda heyvanların vaksinasiya olunması hələlik nəzərdə tutulmayıb. İlk növbədə insanlardır. Daha sonra digər məsələlərə də baxılacaq ".

**Aytac Ali**

# Putinin Paşinyandan konkret tələbləri var

*Moskvaya elə-belə çagırılmayıb*



Ermənistanın Baş naziri Nikol Paşinyan aprelin 7-də Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşəcək.

Bu barədə Ermənistan baş nazirinin mətbuat katibi Mane Gevorqyan "Sputnik Ermənistan"a açıqlamasında bildirib. Paşinyanla Putin sonuncu dəfə yanvarın 11-də Moskvada görüşüblər. O vaxtdan indiyədək isə xeyli proseslər baş verib. Ötən aylar ərzində baş nazir ayrı-ayrı vaxtlarda bir neçə dəfə Rusiyanı pis vəziyyətdə qoyub. İndi - Ermənistandakı erkən parlament seçkiləri ərəfəsində Paşinyanın Moskvaya səfərinin səbəbi maraqlıdır. Putin ona "yaşıl işıq yandıracaq", yoxsa "qulaqburması verəcək"?

Bu barədə "Şərq"z danışan BDU-nun professoru, politoloq Əlimusa İbrahimovun fikrincə, Kreml Ermənistan baş naziri qarşısında müəyyən tələblər qoyacaq: "Məlum olduğu kimi, Nikol Paşinyan Ermənistanda baş verən iqtidar-müxalifət qarşıdurması fonunda istefaya göndərilməkdən son anda qurtardı. Onun baş nazir kimi fəaliyyətini davam etdirmək üçün Rusiya öz yardımını əsirgəmədi. Heç kimə sirr deyil ki, Ermənistan Silahlı Qüvvələri Baş Qərargah rəisi Onik Qasparyan məhz Moskvanın nəzarəti altında Paşinyana istefaya getmək haqqında ultimatum vermişdi. Onun növbəti addımının hərbi çevrilişə gətirib çıxaracağı ehtimalı çox yüksək idi. Moskvanın Onik Qasparyanın geri çəkilməsi haqqında təlimatından sonra Paşinyan nəzərdə tutduğu dəyişikliyi həyata keçirə bildi. Baş nazirə qarşı çıxan digər müxalifət qüvvələrinin də "tonunun aşağı salınmasında" Moskvanın "sehrli çubuğundan" istifadə edilməsi şübhə doğurmur. Deməli, son hadisələr fonunda Ermənistan baş nazirinin üzərinə Rusiyaya ödəməli olduğu xeyli "borc" yığılıb. Moskva bu "borc"un iyunda keçirilməsi nəzərdə tutulan növbədənkənar parlament seçkilərinədək ödənməsini istəyir. Elə ona görə də Paşinyanın Rusiyaya budəfəki səfəri əvvəlkilərdən fərqlənir. Putin Paşinyanı "yırtıcı" müxalifətin əlindən aldıqdan və onun mövqeyini nisbətən möhkəmləndirdikdən sonra əldə edə biləcəyi güzəştlərə çatmaq üçün onu Moskvaya çağırdı. Bu güzəştlərin haqqında isə indiki halda ancaq mülahizələr söyləmək mümkündür".

**Politoloq, həmçinin gündəm barədə proqnozunu verdi:**

"Məsələn, üçtərəfli bəyanatdan irəli gələn vəzifələr içərisində əhəmiyyətli yer tutan kommunikasiyaların açılması bəndinin həyata keçirilməsi istiqamətində ciddi addımların atılması və müəyyən vaxt çərçivəsində əlaqələrin bərpa olunması; Qarabağda mövcud olan erməni terrorçularının tam tərksilah edilməsi; Ermənistandakı Rusiya meyilli qüvvələrin təqibinə son qoyulması, onların gələcək seçkilərdə hakimiyyətdə təmsil olunmalarına şərait yaradılması; Rusiya sülhməramlı qüvvələrinin bundan sonra milliləşdirilməsi; Paşinyanın Qərbə meylinin qarşısının alınması; Ermənistan iqtisadiyyatında hələ nəzarətdən keçirilməmiş sahələr; Paşinyanın Rusiya hərbi sənaye kompleksinə "İsgəndər" yaxınmənzilli ballistik raketləri haqqında dediyi sözlərlə vurduğu ziyanın ödənməsi kimi məqamlar Putinin irəli sürdüyü tələblər sırasında olacaq.

Bütün bunlar Paşinyandan Rusiyanın xidməti qarşısında ödənməsi tələb ediləcək məsələlərin kiçik bir hissəsidir. Təbii ki, indiki halda və növbədənkənar parlament seçkiləri ərəfəsində Paşinyanın hansısa itaətsizliyi ağlabatan görünmür.

Çünki Rusiyanın Paşinyanı istefaya getməkdən qurtardığı kimi, onu seçki vasitəsi ilə siyasi səhnədən uzaqlaşdırmaq imkanına malik olduğunu Ermənistanda və regionda hamı bilir. Rusiya ikitərəfli görüş vaxtını bu günlərə salmaqla əlində olan vasitələri bir daha Nikol Paşinyana nümayiş etdirmək istəyir. Beləliklə, Rusiya Ermənistan və Paşinyanın düşdüyü vəziyyətdən maksimum öz mənafeyi naminə istifadə etmək istəyir. Onun üçün Ermənistanda kimin hakimiyyətdə olmasının fərqi yoxdur. Təki, bu şəxs Moskvanın "çaldığı oyun havalarının" ritmini tuta bilsin. Ermənistanda baş verən son hadisələr fonunda Putinin yaxın dostu Robert Koçaryanla məsafəli davranması isə onun "Böyük siyasətdə yaxın dost olmur" fikrinə sadiq qaldığını bir daha nümayiş etdirdi".

**Kənan Novruzov**



## Türkiyədə "vurulmuş" admirallar "dirilir"

Bu, hərbi cevrilişə cəhddir, Ankara hazırlıqlı olmalıdır

**Bazar günü Türkiyənin 103 istefada olan admiralı məktub dərc edərək Montrö konvensiyasını Bosfor və Dardanel boğazlarına suveren hüquqlarını bərpa edən Türkiyənin diplomatik qələbəsi adlandırıb.**

Türkiyə polisi Montrö konvensiyasını dəstəkləyən məktuba imza atmış 10 nəfər ehtiyatda olan admiralı həbs edib. Bu barədə Anadolu Agentliyi məlumat yayıb. Xəbərdə məktubu imzalayan daha dörd admiralın prokurorluğa dindirilməyə çağırıldığı qeyd olunur.

**Qardaş ölkədə baş verənləri "Şərq"ə dəyərləndirən politoloq Əhəd Məmmədli bildirib ki, bütün bunlar əvvəlki Türkiyəyə qayıtmaq cəhdi, provokasiya və sabotajdır:** "Ordudan "vurulmuş" general və admirallar indi birləşiblər və özlərini xatırlatmaq istəyirlər. Bu həm də növbəti hərbi çevrilişə bir addımdır. Ona görə də hadisə ciddi nəzərə alınıb, üsyanın ilk addımı yerindəcə dəf edilməlidir.

Görünür ki, xarici qüvvələr Türkiyədə aranı qarışdırmağa yenə cəhd edirlər. Baş verənlər qardaş ölkədə güclü iqtidarın laxladılması üçün növbəti hərbi üsyana qarşı hesablanmış addımdır.

Bu hal Ankara tərəfindən ciddi siqnal olaraq qəbul edilməlidir".

**Yeganə Bayramova**

## Ərdoğanın son zəngi

Türkiyə lideri kralla bir cox mövzuları müzakirə edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İordaniya kralı II Abdullaha telefon açıb.**

"Şərq"in məlumatına görə, Türkiyə Cümhurbaşkanlığından verilən açıqlamada bildirilir ki, dövlət başçıları son durum və bölgədə yaşanan hazırkı vəziyyət, iki ölkə arasındakı əlaqələr barədə fikir mübadiləsi aparıblar. Şübhəsiz, dövlət başçıları arasında gerçəkləşmiş telefon danışığı İordaniya kral taxtının vəliəhdi şahzadə Həmzə bin Hüseynin həbsindən sonra yaranmış vəziyyətlə bağlıdır.

**Məlahət Rzayeva**

## Peyvənd ağrısız keçib

Baş nazirin köməkçisi özünü yaxşı hiss edir



**"Koronavirus əleyhinə peyvənd olunmaq istəyənlərin sayı kəskin şəkildə artıb".**

"Şərq" TASS-a istinadən xəbər verir ki, bu sözləri Rusiya baş nazirinin müavini Tatyana Qolikova söyləyib. O, əhaliyə müraciət edərək "Özünüzü və yaxınlarınızı qorumaq naminə yay mövsümü ərəfəsində vaksinləşin" deyib.

Payızda peyənd olunan baş nazir köməkçisi prosesin ağrısız keçdiyini əlavə edib.

**Kənan**

# Ermənistanda vəziyyət seçkilərdən sonra aydın olacaq

*Proseslərə Rusiya müdaxilə etsə, ölkədə vətəndaş müharibəsi qaçılmazdır*



Ermənistanda Baş nazir Nikol Paşinyanın əleyhdarları aprelin 6-da saat 14:00-da növbəti etiraz aksiyası keçirəcək. Bu barədə "Vətənin qurtuluşu üzrə hərəkat" partiyasının koordinatoru İşxan Saqatelyan feysbukdakı səhifəsində bildirib.

İ.Saqatelyan vətəndaşlara müraciət edərək, onları "pisliyin hakimiyyətdən uzaqlaşdırılması", "milli və güclü dövlət üçün" mübarizəyə qoşulmağa çağırıb. Müxalifətçi, həmçinin, ölkənin təhlükəsizliyinin məhv edilməsinin, Ermənistan ordusunun dağılmasının qarşısının alınması üçün onları aksiyaya dəvət edib.

Qarabağ savaşında məğlubiyyətdən sonra Ermənistanda demək olar ki, hər həftə etiraz aksiyaları keçirilir. Görünən budur ki, aksiyalara yeni-yeni müxalif partiyalar qoşulur. Bununla onlar iqtidarı rahat buraxmaq istəmir, Paşinyanın istefasını tələb edirlər.

Amma Paşinyan çətinliklə də olsa ölkənin əksəriyyətini ələ ala bilib, yenidən söz sahibliyi edir.

Bəs bu etirazdan sonra Ermənistanda nə gözlənilir, müxalifət mitinqlərlə nəyi dəyişə biləcək?

**Bu və digər suallarla bağlı fikirlərini "Şərq"lə bölüşən politoloq Azər Rəşidoğlu deyib ki, Ermənistanda iqtidarın, yaxud da müxalifətin qalib gələcəyi yalnız seçkilərdən sonra məlum olacaq:**

"Ermənistan Qarabağ müharibəsində məğlub oldu. Digər tərəfdən də iqtisadi və sosial vəziyyətləri ağırdır. Bu baxımdan Ermənistanda etirazların olması normal haldır.

Etirazlar yenə olacaq və düşünürəm ki, artan xətlə inkişaf edəcək.

Ermənistan əhalisi "Qarabağ klanı"nın korrupsiya və özbaşınalığından bezib. Ona görə də bu seçkilərdə Paşinyanın şansları az deyil. Amma yenə də hər şey seçkilərdən sonra daha aydın olacaq.

Yəni Ermənistan əhalisi "Qarabağ klanı"nın yenidən hakimiyyətə qayıtmasını istəmir. Paşinyan da bunu bilir. Ona görə də seçkilərə getməkdə israrlıdır.

Digər tərəfdən isə seçkilərin nə ilə nəticələnəcəyi Rusiyanın müdaxilə edib-etməməsindən asılı olacaq. Əgər Rusiya proseslərə açıq şəkildə qarışacaqsa və "Qarabağ klanı"na dəstək verəcəksə, bu artıq Ermənistanda vətəndaş müharibəsini qaçılmaz edəcək.

Amma Paşinyan seçkilərdə yenidən qalib gələcəksə, o, çox gözəl bilir ki, onun Azərbaycanla anlaşmaqdan başqa çarəsi qalmır. Bundan sonra onlar Türkiyə və Azərbaycanla münasibətləri düzəltməyə çalışacaqlar".

**Ağarza Elçinoğlu**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# Hazırda çox dayaz və təməl prinsiplərə uyğun olmayan bir jurnalistika formalaşmaqdadır

## *Sosial şəbəkələrin "hay-küyü" araşdırmaları arxa plana keçirib*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Əvvəlki dövrlərə nisbətən bir qədər arxa planda qalan mətbuatın mühüm janrlarından biri də araşdırma jurnalistikasıdır. Ekspertlər bu janra marağın itməsinin səbəbini internet medianın inkişaf etməsində və operativ informasiya siyasətinə daha çox üstünlük verilməsində görürlər. Medianın nisbətən cavan növlərindən sayılan bu janrın yaranma tarixi XIX əsrin ikinci yarısından başlayır. Ötən dövr ərzində janrın əsas xüsusiyyətləri və ona göstərilən tələblər formalaşıb.**

Bunlar araşdırma jurnalistikasının həm mövzu dairəsini, həm də aparılma metodikasını əhatə edib. Məsələ ondadır ki, jurnalist təhqiqatı onun müəllifindən bəzən yaradıcı keyfiyyətdən daha çox təşəbbüs, iradə və ədalət tələb edir. Ona görə ki, bu janrın əsas predmeti heç də adi hadisələr deyil, birbaşa cəmiyyəti narahat edən, hətta bəzən dövlət orqanlarının üzə çıxarmaqda çətinlik çəkdiyi faktların aşkarlanması ilə əlaqədardır. Yaxın müddətə qədər "araşdırmaçı jurnalist" ifadəsi jurnalistlər arasında birmənalı qarşılanmırdı və bəzi narazılıqlara səbəb olurdu. Məlumdur ki, hər bir materialın yazılması üçün araşdırma mütləqdir, çünki araşdırma bu peşənin ayrılmaz hissəsidir. Əslində jurnalistika özü peşə olaraq araşdırma fəaliyyəti deməkdir. Hər hansı xəbərin qələmə alınmasından əvvəl az və ya çox dərəcədə bir araşdırma fəaliyyəti dövriyyəyə girir. Artıq bu janrla bağlı ziddiyyət yoxdur və KİV nümayəndələri belə bir sahənin mövcudluğunu qəbul edirlər. Təbii ki, bütün gizli məqamları tam açıqlamaq hər zaman mümkün olan proses deyil. Bununla yanaşı, cəhdin özü müəyyən gizli faktların açıqlanması və ya fərqli baxışların formalaşması üçün şərait yaradır. Hadisələri təfərrüatı ilə öyrənə bilmə, faktları ortaya çıxarma və buna bənzər məqsədlərlə araşdırma aparma jurnalistika fəaliyyətinin əsasını təşkil edir. Bu baxımdan hər jurnalistin araşdırmaçı jurnalist olduğunu söyləmək mümkündür. Ancaq jurnalist araşdırması önəmli yenilikləri ehtiva etməsi və cəmiyyət üçün böyük əhəmiyyətə malik olması ilə digər janrlardan fərqlənir. Ekspertlərin fikrincə, araşdırmaçı-jurnalist çox təcrübəli olmaqla, bir detektiv həssaslığı ilə detalları izləməyi bacarmalıdır. Araşdırma bir çox informasiya mənbələrinə əsaslanır ki, onların sırasında insanlar, sənədlər, arxiv materialları, şəxsi müşahidəni göstərmək olar. Onu da qeyd etmək lazımdır ki, məlumat işçisinin araşdırması ilə müxbirlik fəaliyyəti arasında fərq də var. Bir məmurun xarici ölkəyə səfəri haqqında ekspertlərlə görüşmək və onların rəyini üz-üzə və ya telefon vasitəsilə öyrənmək jurnalistin apardığı və aparmaq məcburiyyətində olduğu araşdırmalardandır. Araşdırmaçı-jurnalistlər onlara informasiya çatdıran, şübhəli motivləri olan hər insanın sözünə etibar etməməli, səbr və təmkinlə problemin kökünə enməyə çalışmalıdır.

Ümumən jurnalist araşdırması yorucu və əziyyətli bir işdir. İstər jurnalist araşdırmasında, istərsə də məlumat toplama prosesinin hər hansı mərhələsində jurnalistləri bu yorucu və əziyyətli iş gözləyir. Dünya jurnalistika tarixində araşdırma mediaya aid edilən ilk nümunələr məhz peşəkar yazarların qələminin məhsuludur. Amerika jurnalistikasında Mark Tvenin məqalələri, fransız jurnalistikasında isə Emil Zolyanın "Dreyfus işi" ilə bağlı publisistik yazıları araşdırma-jurnalistikasına nümunə çəkilir. Rus jurnalistikasının ilk araşdırma məhsulu isə A.S.Puşkinin "Puqaçov üsyanı" əsəri hesab olunur. Türkiyə mediasında da araşdırma yazılar xüsusi önəm daşıyır. Hazırda Azərbaycan jurnalistikasında araşdırma dedikdə, kriminalla bağlı materiallar ön plana çıxır. Onun digər qolunu isə tarixi araşdırmalar təşkil edir.

*Bir sıra media nümayəndələri araşdırma yazılarına olan marağın azalmasının səbəbləri barədə "Şərq"ə danışıblar.*

**"Yenisabah.az" saytının baş redaktoru, Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə "Şərq"ə açıqlamasında bildirib ki, onlayn media inkişaf etdikcə araşdırma yazılarına maraq azaldı. Baş redaktor qeyd edib ki, araşdırma yazıları onlayn media resurslarının formatına bir o qədər də uyğun gəlmir:** "Biz informasiya əsrində yaşayırıq. İndi oxucunu daha çox son yeniliklər maraqlandırır. Hadisənin təfərrüatı, bədii təsvir heç kimə lazım deyil. Onlayn media resursları arasında İP uğrunda amansız savaş gedir. Hamı rəqibi qabaqlamaq istəyir. Araşdırma yazıları onlayn media resurslarının formatına bir o qədər də uyğun gəlmir. Bunun üçün qəzetlər, aylıq jurnallar var. Mən deməzdim ki, Azərbaycan jurnalistikasında ümumiyyətlə araşdırma yoxdur. Var. Amma oxucu auditoriyası məhduddur".

S.Verdizadə əlavə edib ki, KİV-lər özləri araşdırma yazılarına çox da maraq göstərmirlər: "Araşdırma yazmaq peşəkarlıq, təcrübə və vaxt tələb edir. Bəzən bir mövzunu araşdırmaq üçün bir ay vaxt lazım gəlir. Hansı KİV-in jurnalistə bir yazı üçün bir aylıq məvacib ödəmək imkanı var? Redaksiyaların maddi-texniki bazaları zəif olduğu üçün mətbuatda araşdırma yazıları çox az gözə dəyir. Başqa bir problem isə odur ki, Azərbaycanda mənbələrin əksəriyyəti jurnalistlərin üzünə qapalıdır. Biz bir nazirin məzuniyyətdə, yoxsa ezamiyyətdə olduğunu dəqiqləşdirmək üçün bəzən iki gün vaxt sərf edirik. Ümumiyyətlə, obyektiv və subyektiv səbəblər ölkəmizdə araşdırma jurnalistikasının inkişafını əngəlləyir".

**"Pia.az" saytının baş redaktoru, tanınmış jurnalist Azər Qaramanlı "Şərq"ə açıqlamasında diqqətə çatdırıb ki, doğrudan da ciddi reportajlar, araşdırma yazıları Azərbaycan mətbuatında getdikcə azalır, hətta yoxa çıxıb:** "Mənə görə bunun bir çox səbəbləri var. Səbəblərdən biri və birincisi, artıq sosial media vasitəsi ilə informasiya birbaşa insanların, necə deyərlər, cibinə getməsidir. Bu zaman da informasiyanın yığcam olması xüsusi önəm daşıyır. Buna görə də araşdırma yazılara tələbat da azalır. Əvvəllər qəzetlər ciddi araşdırmalarla oxucuların maraqlarını təmin edirdi. İndi isə bu tələbat ortadan qalxıb. İnformasiya axını o qədər böyük və intensivdir ki, artıq insanların uzun araşdırmalar oxumağa zamanı da yoxdur. Bu üzdən də qəzet mətbuatı artıq öz populyarlığını itirib. Bu faktor mətbuatın peşəkarlığını hər gün bir az daha öldürür. Onu da qeyd edim ki, araşdırma yazıların ortadan qalxması mətbuatı bayağılaşdırıb. Həm də xəbərçilik, İP yarışında o qədər lüzumsuz xəbərlər istehsal olunur ki, buna artıq jurnalistika da demək olmur. Və deyim ki, hazırda çox dayaz və təməl prinsiplərə uyğun olmayan bir jurnalistika formalaşmaqdadır. Bu prossesin qarşısı alınmazsa, mən Azərbaycan jurnalistikasının gələcəyini heç də yaxşı görmürəm".

*A.Qaramanlı hesab edir ki, hər şeydən əvvəl böyük saytların rəhbərləri mövcud duruma görə günahkardırlar:* "Çünki məhz İP savaşı naminə onlar mətbuatın bu qədər bayağılaşmasına yol açıblar. Və artıq demək olar ki, fəaliyyətlərini də sosial şəbəkələrə köçürüblər. Sözünü etdiyimiz böyük redaksiyalar ciddi araşdırma aparmaq potensiallarını dəyərləndirməli və bir qədər əziyyətli, hətta bahalı olsa belə, bütün sahələr üzrə araşdırma yazıları ilə oxucularını özlərinə cəlb etməlidirlər. Mən düşünürəm ki, mətbuatın xilas yolu da bundan keçir. Çünki araşdırmaçı jurnalist sözün bütün mənalarında peşəkardır. Ümid edirəm ki, böyük kollektivlərə sahib olan redaksiyalar bu gerçəklilərdən çıxış edərək sosial şəbəkələrin yaratdığı "hay-küy"dən kənarlaşaraq, Azərbaycan mətbuatının peşəkar məcraya dönüşünü təmin etmək üçün addımlar atacaqlar. Bu, Azərbaycan cəmiyyətində şəffaflığı təmin etmək üçün, həm də vətəndaş məsuliyyətinin artırılması üçün vacibdir".

Araşdırmaçı jurnalist Kənan Rövşənoğlu "Şərq"ə açıqlamasında Azərbaycan jurnalistikasında araşdırma janrının arxa plana keçməsində internet medianın inkişaf etməsinin və operativ informasiya siyasətinin daha geniş yayılmasını əsas səbəb kimi görmür. O qeyd edib ki, araşdırma yazılarının azalmasının bir çox səbəbləri var ki, onlardan biri maliyyə imkanlarının az olması ilə bağlıdır: "Bildiyimiz kimi, geniş araşdırma vaxt tələb edir. Yəni bir jurnalist müəyyən bir müddət ərzində vaxtını həsr edib araşdırma aparmalıdır. Redaksiyalar isə bu qədər vaxt ayıra bilmir, çünki işçi heyəti azdır və araşdırma üçün yetərli maddi imkan olmur. Bu səbəbdən də redaksiyalar vaxt tələb edən geniş araşdırmalara maraq göstərmir".

**K.Rövşənoğlu vurğulayıb ki, bütün dünyada araşdırma jurnalistləri təzyiqlə və müqavimətlə üzləşir:** "Bizdə də köhnə illərdə araşdırma yazılara görə uzun-uzadı məhkəmə çəkişmələri olub. Buna görə də əksər redaksiyalar bu riski və təzyiqləri gözə almaq istəmir. Bəzən səbəblər arasında sosial medianın inkişafını göstərirlər.

Məncə bu, səbəb deyil, sadəcə bəhanədir. Düzdür, sosial media xəbərin sürətini kəskin şəkildə artırıb, amma peşəkar medianı əvəz edə bilməz. Jurnalist araşdırmasını isə ümumiyyətlə, sosial media ilə bağlamaq olmaz. Əgər qeyd etdiyim maneələr aradan qalxsa, indi də yaxşı araşdırmalar ortaya çıxa bilər. Hər şey tələb və təkliflə əlaqədardır. Tələbat olsa indi də yaxşı araşdırma hazırlayacaq jurnalistlər var və tələb olarsa yeniləri də formalaşa bilər".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Cin vaksinindən daha sərfəlidir

## Azərbaycanda “AstraZeneca”ya üstünlük verilməlidir




COVAX platforması çərçivəsində Azərbaycana koronavirusa (COVİD-19) qarşı vaksin gətirilib. Vaksini gətirən şəxsləri hava limanında TƏBİB, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, BMT və ÜST nümayəndələri qarşılayıb.

Qeyd edilir ki, GAVI (Vaksin və İmmunizasiya üzrə Qlobal Alyansı) təşkilatının Kommunikasiya üzrə baş meneceri Rozi Qrivs İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyevlə onlayn formatda görüşdə bildirib ki, ilkin mərhələdə Koreyadan ”AstraZeneca” şirkətinə məxsus 84 000 doza COVID-19 vaksin dərman vasitəsi (”Vaxzevria”) Azərbaycana göndəriləcək. Eləcə də, 8 həftə ərzində Azərbaycana 218 790 doza ”Pfizer-BioNTech” vaksinləri ayrılacaq. Ümumilikdə ”AstraZeneca” şirkətinə məxsus 432 000 doza COVID-19 vaksin dərman vasitəsinin may ayının sonuna qədər Azərbaycan Respublikasına idxalı nəzərdə tutulub. Yəni ölkəyə daha 432 min doza vaksin gətiriləcək.

Jurnalistlərə açıqlamasında səhiyyə nazirinin müavini Viktor Qasımov isə bildirib ki, vaksinlər Cənubi Koreya istehsalıdır: ”Əlbəttə, nə qədər tez əhali peyvənd olunsa, kollektiv immunitet yaranmaqla insanlar bir o qədər tez bu bəladan müəyyən qədər xilas olacaq”. V.Qasımov əlavə edib ki, ölkədə bu günə kimi 900 mindən artıq insana peyvənd vurulub. Hər gün 30-35 min insana peyvənd vurulur. Nazir müavini qeyd edib ki, Azərbaycanın ehtiyatda 1 milyon doza vaksini var:

”Məlum olduğu kimi, yanvar ayının 18-dən etibarən Azərbaycanda vaksinasiya prosesinə start verilib. Birinci dozadan 600 min şəxs, ikinci dozadan isə 300 min şəxs peyvənd olunub. Bu prosesdə məqsədimiz ölkə əhalisinin 60-70 faizini peyvəndləməkdir. Vaksin preparatlarımız lazımi qədər olduqca bu proses ən tez bir zamanda reallaşacaq”.

**Ayrı-ayrı epizodların əmələ gəlməsi ilə bu vaksin haqqında mənfi rəy yürütmək düzgün olmaz. Böyük Britaniyada 20 milyon insan vaksinasiya edilib**

Amma ”AstraZeneca” vaksini lə bağlı rəylərin heç də hamısı müsbət deyil. Avropanın bir sıra ölkələri bu vaksinin istifadəsini dayandırıb. Səbəb kimi vaksin vurulduqdan sonra az sayda olsa da, baş vermiş ölüm hallarıdır. İngiltərədə 7 nəfərin peyvənddən sonra həyatını itirdiyinə dair məlumatlar verilib. Hollandiya da ”AstraZeneca” vaksininin istifadəsini dayandırdıqdan sonra İtaliya, Fransa və Almaniya da bu vaksindən istifadəni müvəqqəti olaraq dayandırıb. Hollandiya Səhiyyə Nazirliyinin yaydığı açıqlamada Hollandiya Dərman Dairəsi yeni məlumatlara əsaslanaraq tədbir görülməsi və daha dərin araşdırma aparılması məqsədilə ”AstraZeneca” peyvəndinin istifadəsinin müvəqqəti dayandırıldığını və peyvəndlənmə üçün əvvəlcədən təyin edilmiş müddətlərin ləğv edildiyini bildirib.

ÜST isə ”AstraZeneca” peyvəndinin tətbiqinin davam etdirilməsini vacib hesab edir. İlkin araşdırmalarda bu vaksinin təsir imkanları 100-də 63 olaraq dəyərləndirilmişdi. ÜST də bu vaksinin COVİD-19-un yeni ştamlarına qarşı az təsirli olduğunu etiraf edir, bununla bərabər yenə də ”AstraZeneca”nı məsləhət görür. Cənubi Afrika hökuməti isə koronavirusun yeni növlərinə qarşı minimal təsirə malik bu vaksini başqa ölkələrə satışa çıxarmağı düşünür.

Qeyd edək ki, ”AstraZeneca” vaksini vurdurmuş insanlarda qan qatılaşması müəyyən edilib, ölüm hallarının da bu səbəblə baş verdiyi güman edilir. ”AstraZeneca” firmasından gələn açıqlamada isə ”qan qatılaşması riskini artırmasına dair heç bir sübut yoxdur” açıqlaması verilib. Amma şübhələr yenə qalır. Məsələn, Güney Koreyada COVİD-19 əleyhinə peyvənd vurdurmuş 2 xəstənin ölüm səbəbləri araşdırılır. Mütəxəssislərin də rəyləri müxtəlifdir. Portsmut Universitetindən həkim Simon Kolstoy ”Evronews” telekanalına açıqlamasında ”AstraZeneca” vaksininin istifadəsini dayandıran ölkələrə təəccüb etdiyini deyib: ”bunun bur qədər aşırı təpki olduğunu zənn edirəm. Hər hansı bir yeni dərman preparatı istehsalına qarşı bu cür təpkilər və inamsızlıqların olduğunu görürük”.

**Azərbaycan Dövlət Tibb Universitetinin professoru Adil Qeybulla ”Şərq”ə açıqlamasında ”AstraZeneca” vaksininin yüksək texnologiya ilə hazırlandığını bildirdi:**

- ”AstraZeneca” Oksford Universitetinin tədqiqatçıları tərəfindən yüksək texnologiya ilə hazırlanıb. İmmunsistemə həddən artıq həssaslığı var. Ona görə də bəzi paradoksal reaksiyaların olması təbiidir. Ayrı-ayrı epizodların əmələ gəlməsi ilə bu vaksin haqqında mənfi rəy yürütmək düzgün olmaz. Böyük Britaniyada 20 milyon insan vaksinasiya edilib. Azərbaycanın bu vaksini tərcih etməsi də, hesab edirəm ki, düzgün seçimdir. ”Çin vaksini, yoxsa ”AstraZeneca” müqayisəsi aparsaq, hesab edirəm ki, ”AstraZeneca”ya üstünlük verilməlidir. O ki qaldı vaksinlərin istifadədən öncə kliniki araşdırmalar aparılmasına, çünki belə xəbərlər də yayılır ki, guya, vaksinləşmə prosesi sürətlənməsin deyə, istehsal edilmiş vaksinlər kliniki araşdırmalar aparılmadan istifadəyə verilib, bu, yanlışdır. Bütün vaksinlər kliniki çalışmalardan keçirildikdən sonra istifadəsinə icazə verilir. Vaksinlər istehsaldan birbaşa istifadəyə buraxılmır. Ona görə də narahatlığa əsas yoxdur.

**Məlahət Rzayeva**




## Regiondakı sahibkarların imkanları məhduddur

“Banklar hər 100 manatlıq kreditin 80 manatını Bakı şəhərinə ayırırlar”

**”Mərkəzi Bankın məlumatına görə, 14 milyard 246 milyon manatlıq kredit portfelinin 11 milyard 360 milyon manatı Bakının payına düşür”.**

Bu sözləri Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov deyib. Onun sözlərinə görə, Abşeron iqtisadi rayonunun 489 milyon 530 min manatlıq kredit portfelinə sahib olduğunu nəzərə aldıqda, o zaman kredit qoyuluşlarının cəmi 17 faizinin regionların payına düşdüyü bəlli olur: ”Deməli, rəsmi statistikaya görə, 100 manatlıq kreditin cəmi 17 manatı regionların payına düşür. Və ya banklar hər 100 manatlıq kreditin 80 manatını Bakı şəhərinə ayırırlar. Bankların regionlara daha az kredit ayırmasının əsas səbəblərindən biri də rayonlarda yaşayan sahibkarlar üçün girov mexanizmi şərtlərinin ağır olmasıdır. Belə ki, banklar əksər hallarda kredit ayıran zaman paytaxtda girov tələb edilər ki, əksər yerli sahibkarların bu imkanları olmur. O baxımdan, girov mexanizminin təkmilləşdirilməsi və regionlarda fəaliyyət göstərən sahibkarlar üçün güzəştli kreditlərinin həcminin artırılması vacibdir. İnklüziv və balanslı iqtisadi inkişafın gücləndirilməsi üçün regionlarda fəaliyyət göstərən sahibkarların ucuz kreditlərə çıxış imkanlarının artırılması vacib şərtlərdəndir”.

**Aynurə Pənahqızı**

# Manatın dəyərdən düşməsi bu il gözlənilmir

## Hazırda Mərkəzi Bankın valyuta ehtiyatlarının azalması o qədər də yüksək səviyyədə deyil

*“Dünya bazarında neftin qiyməti Azərbaycan üçün əlverişlidir”*

2021-ci il aprelin 1-nə olan vəziyyətə görə, Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları 6,356 milyard dollar təşkil edib. Bu barədə Mərkəzi Bankın hesabatına istinadən məlumat verir.

Hesabata əsasən, Mərkəzi Bankın valyuta ehtiyatları 2020-ci ilin eyni dövrü ilə müqayisədə 0,6 faiz azalıb. Eyni zamanda, 2021-ci il yanvarın əvvəli ilə müqayisədə valyuta ehtiyatları 0,2 faiz və ya 11,4 milyon dollar azalıb.

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Pərviz Heydərov ”Şərq”ə açıqlamasında deyib ki, hazırda Mərkəzi Bankın valyuta ehtiyatlarının azalması o qədər də yüksək səviyyədə deyil.** Ekspert qeyd edib ki, son illər ərzində pandemiya dövrünü nəzərə almasaq, Mərkəzi Bank valyuta ehtiyatlarını xeyli məbləğdə artırmağa nail olub: ”2015-16-cı illərdə neftin dünya bazarında qiymətinin düşməsi ilə əlaqədar olaraq Mərkəzi Bank birdən-birə 15 milyarda yaxın valyuta ehtiyatından 11 milyardını itirdi. Hətta qeyd edim ki, iki dəfə devalvasiya oldu.

Ən ciddi itki Mərkəzi Bankın valyuta ehtiyatlarında o zaman baş verdi”.

*P.Heydərov vurğulayıb ki, 2017-ci ildən etibarən stabilləşmə başladı:* ”Bundan sonra Mərkəzi Bank valyuta ehtiyatlarını yavaş-yavaş cüzi də olsa artırmağa başladı. Nəyə görə? Çünki valyuta bazarında, yəni manatın dəyərində sabitlik yarandı. Dünya bazarında neftin qiyməti qalxdı. Və həmçinin ölkəyə valyuta axını ölkədən valyuta çıxışından yüksəyə qalxdı. Nəticədə manatın dəyəri sabitləşdi. Bu gün də vəziyyət belədir. Dünya bazarında neftin qiyməti Azərbaycan üçün əlverişlidir. Manatın dəyərində hazırda sabitlik müşahidə olunur. Sadəcə olaraq, bu sabitlik bir az möhkəm xarakter daşısa, yenidən növbəti aylarda Mərkəzi Bank valyuta ehtiyatlarını artıra bilər. Amma valyuta bazarında tarazlıq pozularsa, manatın dəyəri dollara münasibətdə ucuzlaşar. Belə bir hal isə ən azı bu il üçün gözlənilmir”.



**Aynurə Pənahqızı**

# Neçə müəllimin və şagirdin kompüteri yoxdur?

*Sualların cavabı Təhsil Nazirliyində var, amma nə faydası?*



"Hökumət distant formada təhsilin təşkilini Təhsil Nazirliyinin üzərinə atıb. Nazirlik isə bu problemin həllini müəllimlərin və valideynlərin boynuna yıxıb". Bunları "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib.

**Bu barədə daha ətraflı "Şərq"ə danışan ekspertin sözlərinə görə, qaranlıq məqamlar kifayət qədərdir:** "Təhsil Nazirliyi ötən gün təşkil etdiyi ictimai rəy sorğusunun nəticələrini açıqlayıb. Gözlənildiyi kimi, nazirlik çoxluğun distanta üstünlük verdiyini bildirib. Bunu nəzərə alan qurum pandemiya müddətində əsasən distant təhsil formasına üstünlük verəcək.

Amma hələlik nazirlik distantla bağlı, daha doğrusu, distant təhsilin keyfiyyəti ilə bağlı zəruri olan bir çox məsələlərə aydınlıq gətirməyib. Uzun müddət ölkədə distanta hazırlıq aparılmayıb. Texniki-texnoloji və hüquqi əsaslar yaradılmayıb.

Baxmayaraq ki, nazirliyin əlində bununla bağlı ictimai əhəmiyyət kəsb edən informasiyalar var. Təəssüf ki, onlar indiyədək açıqlanmayıb: Neçə müəllimin kompüteri yoxdur?; Neçə şagirdin kompüteri yoxdur?; Neçə müəllim və ya şagirdin internet ödəniş imkanı yoxdur?; Neçə şagird və müəllimin keyfiyyətli internetə əlçatanlığı yoxdur?; Neçə müəllim və şagirdin distant üçün evdə normal şəraiti yoxdur və mənimsəmə zəifdir?; Distant üçün zəruri olan rəqəmsal tədris resursları, metodiki təminat yetərlidirmi?; Neçə müəllim və şagirdin rəqəmsal bacarıqları yetərli deyil"?..

**O.Gündüz, problemin ciddi olduğunu dedi:** "Bu sualların hamısının cavabı Təhsil Nazirliyində var. Fikrimcə, nazirlik keyfiyyətli distantın təşkili üçün ölkə üzrə şəraitin qənaətbəxş olmadığını bilir. Güman etmək olar ki, bununla bağlı nazirlik hökumətə də texniki-texnoloji dəstək üçün müraciət edib.

Lakin məlum olduğu kimi, indiyədək hökumət bu istiqamətdə nazirliyə dəstək verməyib. Belə olan halda isə nə qədər qəribə görünsə də, nazirlik problemin həllini müəllimlərin, şagirdlərin və valideynlərin üzərinə atmaq məcburiyyətində qalıb.

Görəsən, bununla biz Dördüncü sənaye inqilabının çağırışlarına, rəqabətə davamlı ölkə üçün zəruri tələblərə cavab verən kadrlar hazırlaya biləcəyikmi?".

**Kənan Novruzov**

## Bazarda alçanın qiyməti 100 dollardan bahadır

"Bu, tənzimlənməyən qiymət növüdür və hər il təkrarlanır"




**Azərbaycanda satış obyektlərinin birində alçanın kilosu 175 manata satılır. İnsanın inanmağı gəlmir. Ta ki, gözü ilə görənə kimi.**

Görəndə də, necə deyərlər, gözümüz kəlləmizə çıxır. Maraqlısı hər il eyni tendensiya ilə rastlaşmağımızdır. Gör, alça nə dəyərli meyvə imiş ki, bu qədər baha qiymətə təklif olunur. Yaxşı, alçanın, sahibkarın üzü gülür. Bəs alıcılar?!

**İqtisadçı-ekspert Natiq Cəfərli bu barədə "Şərq"z açıqlamasında problemin aradan qaldırılması yollarından danışdı:**

"Mövcud durumun nə iqtisadi, nə də elmi açıqlaması var. Bu, tənzimlənməyən qiymət növüdür və hər il təkrarlanır. Əlbəttə, kimsə almayacaqsa, məhsul tullantı olacaq. Çünki qiymət çox bahadır, hətta 100 dollardan da çoxdur.

Lakin məsələ ondan ibarətdir ki, alıcı və satıcı arasında əlaqə bazar vasitəsilə təmin olunur.

Elə infrastuktur yaranmalıdır ki, nübar meyvələr bazara çıxanda rəqabətlilik yaransın. Bunun üçün yeni meyvə bağları, çoxlu soyuducular olmalıdır. Şübhəsiz, rəqabətli mühit yarandıqca qiymət avtomatik tənzimlənəcək".

**Kənan**

## Rusiya müsəlmanları Həccə gedəcək

Zəvvarlar bu ölkənin istehsalı olan "Sputnik V" peyvəndini vururlar



**Azərbaycan, eləcə də qardaş Türkiyə pandemiya səbəbindən builki Həcc ziyarətinin baş tutmayacağını elan etsə də, Rusiya müsəlmanları müqəddəs məkanlara səfərə hazırlaşır.**

Maraqlıdır, bu, necə mümkün olacaq? "RİA Novosti"nin xəbərinə görə, Rusiya müsəlmanlarının Baş İdarəsi - Rusiya Müftilər Şurasının sədr müavini Ruşan Abbasov bildirib ki, ölkə müsəlmanları bu il Həcc ziyarətinə gedə biləcək. Səudiyyə Ərəbistanın Həcc ilə bağlı əsas şərti zəvvarların COVİD-19-a qarşı peyvənd olunmasıdır. Rusiya zəvvarları da bu ölkənin istehsalı olan "Sputnik V" peyvəndini vururlar. Baxmayaraq ki, Ümumdünya Səhiyyə Təşkilatı Rusiya peyvəndini təsdiqləməyib. Müftilər Şurası ümid edir ki, zəvvarların məhz bu peyvənddən istifadə etmələri onların yolunu kəsməyəcək. Sədr müavini SƏ-nin ünvanına xoş sözlər deməkdən də çəkinməyib: "Səudiyyə Ərəbistanı Həcc məsələsində siyasi düşüncədən çıxış etmir, mövcud vəziyyətə görə hərəkət edir".

*Qeyd edək ki, Türkiyə Diyanət İşləri Başkanlığı pandemiya səbəbindən bu il Ümrə ziyarətinə zəvvar göndərilməyəcəyini, Həcc ziyarətinin baş tutacağının da mümkünsüz göründüyünü bildirib.*

**Məlahət**

# Artıq intiharlar iş yerlərinə keçir

*Əhali koronavirusa qarşı lazımi şəkildə davranmır, bundan da pis vəziyyət gözlənilir*



Əksər hallarda intiharların baş vermə səbəbini insanların maddi durumu ilə əlaqələndirirlər. İşsizlik və maddi sıxıntılarla üzləşən şəxslərin çıxış yolu olaraq intihara əl atdığı deyilir. Maraqlıdır ki, son günlər canına qəsd edən insanlara haqq qazandıranlar da çoxalıb. Hər kəs pandemiyanın yaratdığı ən başlıca problemin maddi sıxıntı olduğu qənaətinə gələrək, intihar edənləri qınamır. Pandemiyanın yaratdığı gərginliklərdən danışmışkən, iş yerində intihar edənlərin çoxaldığını da xüsusilə vurğulamaq yerinə düşərdi.

Məlumdur ki, koronavirus bir çox işlərinin bağlanmasına səbəb oldu. Eyni zamanda müxtəlif iş yerlərində vətəndaşların maaşının azaldığı da deyilir. Nəticədə çətin duruma düşənlər son çarəni intiharda görür.

Məsələn elə, aprelin 2-də "Azərsu" ASC-nin əməkdaşı, 1987-ci il təvəllüdlü Elxan Quliyev çalışdığı iş yerində - Səbail rayonu ərazisində yerləşən Su Kanal İdarəsində intihar edib.Faktla bağlı Səbail Rayon Prokurorluğunda araşdırma aparılır. Qurumun mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı "Şərq"z məlum olayın səbəbləri barədə bunları söyləyib: "E.Quliyev əməkdaşımızdır. Səbail su kanalı idarəsində nasos qurğularının maşinsti vəzifəsində işləyirdi. İki azyaşlı uşağı var. İntiharın səbəbi ilə bağlı bir söz deyə bilmərəm. Hər şey istintaq araşdırması nəticəsində məlum olacaq. Lakin onun işi ilə əlaqədar hansısa bir problemi olmayıb".

**Mövcud durumla bağlı "Şərq"ə danışan sosioloq-alim Əhməd Qəşəmoğlu bildirib ki, bu məsələlərin hamısını ətraflı izah etmək üçün elmi nəzəriyyələrə ehtiyac var:** "Elmi nəzəriyyədə kifayət qədər əsaslandırılıb ki, hər hansı insanın, sosial qrupun davranışına təsir edən 4 amil var: şəxsi, genlərindən gələn xüsusiyyətlər, yaşadığı mühit, üstünlük verdiyi dəyərlər və alınan informasiyalar. Deməli, bu gün intiharın səbəblərini araşdıranda bu 4 amilə də diqqət yetirməliyik. Anadangəlmə psixoloji cəhətdən intihara meyilli insanlar var.

Onları müəyyənləşdirib, intihara meyillidilər deyə aləmə hay salmadan cəmiyyətdə iş üsulu yaratmaq olar. Çünki intihara meyillilik müxtəlif cəmiyyətlərdə ortaya çıxır, ya da çıxmır. Qanunvericilik, ölkədə insanlar arasında münasibət mühit yaradır və insana təsir edir. Bir digər amil olan dəyərlər isə çox mühümdir. İnsanın daxili aləmi zənginləşdikcə yer üzünün problemlərini yaxın buraxmır. Əvvəllər buna maarifləndirici, mənəvi dəyərlərə əsaslanmış bədii əsərlər və həqiqi dini dəyərlər kömək edirdi. İndi isə bədii ədəbiyyat oxuyan yoxdur, normal filmlər yaranmır. Yəni insanlarda mənəviyyatı zənginləşdirən faktorlar zəifləyib". **İş yerlərində intiharların çoxalmasına gəlincə, sosioloq vurğulayıb ki, hazırda iş yerlərində rəhbər olan şəxslərin də psixologiyası normal durumda deyil:** "Rəhbərlik edən adamlar, bəlkə, daha çox həyəcan içindədir. Onların arasında da intihar edənləri görürük. Təəssüf ki, bu halın çoxalması gözlənilir. Çünki onlar da çətin vəziyyətdədir. Bəs, kimi günahlandıraq? Deyək ki, dövlət həmin rəhbər şəxslərə ayda filan qədər maddi yardım etsin, bu da çıxış yolu deyil. Ona görə də məsələyə fərqli yanaşmaq lazımdır". **Ə.Qəşəmoğlu problemin həlli yollarını da açıqlayıb:** "Pandemiya zamanı ilk diqqət əhalinin koronavirusa qarşı münasibətinin dəyişməsinə yönəlməlidir. Necə ki, əhali koronavirusa qarşı lazımi şəkildə davranmır, bundan da pis vəziyyət gözlənilir.

Maddi durumların intihara səbəb olduğunu söyləmək yanlış fikirdir. Maddi vəziyyət sadəcə intiharın amillərindən biridir. İntihardan danışarkən kompleks məsələləri qeyd etmək lazımdır.

Əhalinin indiki zamanda koronavirusa qarşı lazımi davranışı olması üçün 3 istiqamətdə iş aparılmalıdır: 1. Əhali müasir tələblərə uyğun olaraq elmi metodlarla maariflənməlidir. 2. Həvəsləndirmə olmalıdır. Hansı kəndlərdə və ya bölgələrdə insanları maarifləndirmək istiqamətində yaxşı işlər gedirsə, həmin kəndə müəyyən pullar ayrıla bilər. 3. Müasir tələblərə uyğun olaraq yüksək mədəniyyətlə inzibati təzyiqi gücləndirmək lazımdır. Bu 3 istiqamət bir-biri ilə qarşılıqlı şəkildə həyata keçirilməlidir. Bu sahədə işlər getmədikcə vəziyyət düzələn deyil".

**Yeganə Bayramova**

# “Bu il mənə düşmədi”

## Kərim: “Belə acılar yaşadıqdan sonra möhkəm olmursan, sınırsan”



Müğənni Kərim Abbasov "ATV magazin onlarla" verilişinin " 33 sual" rubrikasında qonaq olarkən həyatı ilə bağlı açıqlamalar verib.

**O, yaşadığı çətinliklərdən danışıb. ”Şərq”in məlumatına görə, ifaçı göz yaşlarını tuta bilməyərək bunları söyləyib:** ”Valideynlərimi -atamı, anamı itirdim. Artıq itirməkdən qorxuram. O zaman hər kəsdən qaçmışdım. Evdə divanımda bir küncüm var, yalnız mənə məxsusdur. Ailə üzvlərim də oturmur . Qapanmışdım həmin yerə, orda təsəlli tapırdım. Ölənlə kimsə ölmür, amma ölmüş kimi bir şey olursan. Yeni ilim də, Novruzum da qara gəldi. Bu il mənə düşmədi. Belə acılar yaşadıqdan sonra

"Ailəmə, oğluma bir şey olsa, o an intihar da fikirləşərəm"

möhkəm olmursan, sınırsan. İnsan daha da həssaslaşır, başa düşürsən ki, atan, anan getdi, sabah sıra sənə də gələcək. Ailəm, oğlum mənim üçün çox önəmlidir. Ona görə çox həssasam. Bəzən gözümün önünə ailəmlə bağlı bir kadr gəlir. Düşünürəm ki, onlara nə isə olsa, mən nə edərəm? O an intihar da fikirləşirəm, özümü kəsib-doğramaq da istəyirəm. Çünki onlara bir şey olsa, yaşaya bilmərəm”.

**İfaçı deyib ki, onun bir qardaşı da vəfat edib:** ”O zaman atamın-anamın nələr yaşadığını görmüşəm. Mən isə dözə bilmərəm. Oğlum mən öpmədən yatmır, bağcadan götürürəm, getməsəm gəlmir. Bütün deyilənləri çox ciddiyə almaq məni həssaslaşdırdı. Əsəb dispanserində də müalicə olundum. Hətta özünü Napaleona bənzədən insanlarla birgə qalırdım. Çox əziyyət çəkmişəm. Ona görə özümlə fəxr edirəm. Deyirəm, sən güclüsən. Nələr yaşadım, amma gəldim Kərim oldum. Fəhlənin balası ikən Azərbaycan estradasının ulduzuna çevrildim. Bununla qürur duyuram”.

**Samirə Ərəblinski**

## “Fəryad"ın Aşotu fani dünyaya "əlvida" dedi

Aktyor ömrünün son illərini Bilgəhdə yerləşən “Qocalar evi”ndə yaşayıb



**”Fəryad” filmində canlandırdığı Aşot obrazı ilə də yaddaşlarda silinməz izlər qoyan aktyor Fikrət Məmmədov vəfat edib.**

Bu barədə aktyorun həmkarları sosial şəbəkədə məlumat yayıblar.

O, 1 yanvar 1956-cı ildə dünyaya gəlib.

”Axırıncı reys” (1989), ”Bağlı qapı” (1981), ”Bayquş gələndə” (1978), ”Cin mikrorayonda” (1985), ”Çarə” (1981), ”Doğma sahillər” (1989), ”Əlaqə” (1989), ”Fəryad” (1993), ”Fırıldaqçı” (1983), ”Gözbağlıcı” (1986), ”Gümüşgöl” əfsanəsi (1984), ”Güzgü” (1990), ”Hədiyyə” (1986) və başqa filmlərdə yer alıb.

Bronxial astma xəstəliyindən əziyyət çəkən aktyor ömrünün son illərini Bilgəhdə yerləşən ”Qocalar evi”ndə yaşayıb.

*Qeyd edək ki, aktyor Fikrət Məmmədov Azərbaycanın məşhur musiqi xadimi Ağası Məşədibəyovun nəvəsidir.*

***Allah rəhmət eləsin!***

**Turan Etibaroğlu**

## “İlhamə Quliyeva qisas almadığım yeganə insandır"

Flora Kərimova: “Amma elə insanlar var ki, onları cəzalandıracam”



**”Heç vaxt bağışlamayacağım daha bir müğənni yoxdur. O qadın (İlhamə Quliyeva-.red) qisas almadığım yeganə insan idi. Sonra da dünyasını dəyişdi”.**

”Şərq” xəbər verir ki, bu sözləri ”Heç vaxt, heç yerdə” verilişində Xalq artisti Flora Kərimova deyib. Sənətkar söhbətə davam edərək bunları söyləyib: ”Yaradan ona verdiyi xasiyyət ilə mənim qisasımı özü aldı. Lakin elə insanlar var ki, onları cəzalandıracam. Üzr istəsələr belə... Bir də ki, əsla üzrü qəbul etməyin. Çünki əvvəl dediyi sözün ləkəsi sizdə qalır. Dost yox, düşmən haqqınızda danışanda, onun dediyi sözü açacaq, deyəcək filankəs belə söyləyib”.

**Samirə Ərəblinski**

# “Yaxşı, pis insanlar da müvəqqətidir”

## Nura Suri: “Bu səbəbdən insanlardan gözləntinizi azaldın ki, sonra məyus olmayasınız”



"Kim deyir ki, insanlar dəyişmir? İnsan elə dəyişir ki... Bir az pulu, vəzifəsi və s. artan kimi geyimi, duruşu, ətrafı və hətta səsinin tonu belə başqalaşır. Yalnız bəzi xüsusiyyətləri olduğu kimi qalır. Əclafdırsa, pulu var, ya yox, elə ömrünün sonunacan elə olacaq. Haqdırsa da həmçinin".

**”Şərq”in məlumatına görə, bu sözləri feysbuk profilində müğənni Nura Suri yazıb. O, statusun davamında bunları deyib:** ”İnsan təkcə başqaları üçün dəyişmir. Özünə də sadiq deyil. Dünən sevdiyinə bu gün nifrət edən, ”heç vaxt etmərəm” deyib edən insanda etibar, sadiqlik axtarmayın. Sevgi, nifrət, etibar və s. hamısı müvəqqətidir. Yaxşı, ya pis insan yoxdur. Müvəqqəti yaxşı və pis insan var . Bir nəfər mənə görə yaxşı, sənə görə pis ola bilir. Bu səbəbdən insanlardan gözləntinizi azaldın ki, sonra məyus olmayasınız. Lap əvvəllər sözlərin mənası var idi. Yəni söz verib nəyisə etməmək nakişilik kimi qəbul olunurdu. Vaxt keçdikcə insanlarda nə sözə dəyər qaldı, nə yaddaş, nə də yaxşı əmələ qiymət. İnsan zamanla robotlaşıb hissiyatsız məxluqa çevrildi. Saxta geyimlə birgə bəşər özü də saxtalaşdı. Sanki ”Gözəllik 10-dur 9-u dondur” deyib gözəl görünməyin nə qədər vacib olduğunu boş beyinlərə həkk etdilər. Saxta hisslər, dostlar, hörmət və s. - süni insan modeli belə yarandı...”

**Samirə Ərəblinski**

## “Məni gizlin toylara çağırmasınlar"

Xatirə İslam qayda-qanunu sevir



**”Azərbaycanda gün ərzində 500-dən çox gizli toy olur. Bunlar nə vaxta qədər davam edəcək?”**

”Şərq” xəbər verir ki, bu sözləri instaqram səhifəsində müğənni Xatirə İslam yazıb. O, fikirlərinə bunları da əlavə edib: ”Toylara ya icazə verilməlidir, ya da qanunsuz keçirilənlərin qarşısı alınmalıdır. Dostlarımdan, tanışlarımdan da xahiş edirəm ki, məni gizli təşkil etdikləri toylara çağırmasınlar. Çünki qayda-qanun adamıyam, iştirak etdiyim məclisdə rahat olmalıyam. Məni düz başa düşün”.

**Samirə**

## Elza qoyun qıgından paltar geyinəcək



**Müğənni, bəstəkar Elza Seyidcahan Dilarə Əliyevanın ” Söhbət var ” verilişindəki ilğinc açıqlaması ilə diqqət çəkib. Daim qeyri-adi stili ilə gündəm olan sənətçi bu dəfə də izləyiciləri təəccübləndirib.**

”Şərq” xəbər verir ki, o, geyinmək istədiyi libasdan danışıb: ”Bir paltar hazırlatmağı düşünürəm. Bilmirəm o necə olacaq. Qoyun qığından libas fikirləşirəm. Böyük bacım məsləhət görüb. Yəqin ki o qurudulacaq, üzərinə lak vurulacaq. O zaman qoxusu da olmaz”.

**Samirə**

## Rəhim Rəhimlini Türkiyədə incidən həbsdədir



**Müğənni Rəhim Rəhimli ”Həmin Zaur” verilişində qonaq olarkən Türkiyəyə getməsinin səbəbini açıqlayıb.**

”Şərq” xəbər verir ki, sənətçi bir müddət qardaş ölkədə yaşaması haqqında bunları söyləyib: ”Vəzifəli, hörmətli insanlarla dostluq əlaqələrim var idi. Sonra bir nəfər müəyyən məsələləri gedib çatdırdı. Bizim aramızda anlaşılmazlıq yarandı. Həmin adamın adını deyə bilmərəm. Amma eşitdiyimə görə həbs olunub. Allah qapısını açsın. O, olmayan söhbətləri demişdi. Sonradan həqiqət məlum oldu. Keçmiş illəri xatırlamaq istəmirəm”.

**Samirə**

# Azərbaycanda 4 ali məktəbə tədqiqat universiteti statusu vermək olar



Azərbaycanda tədqiqat universitetləri yaradılacaq. Bununla bağlı "Ali təhsil haqqında" qanun layihəsinin ilkin variantı hazırlanıb.

## *İqtisadi yardım verilməsə, bunun heç bir əhəmiyyəti olmayacaq*

Ölkənin rəqabət qabiliyyətli və dayanıqlı inkişafının təmini, yüksəkixtisaslı kadr hazırlığının əmək bazarının tələbinə və beynəlxalq ixtisas təsnifatına uyğunlaşdırılması, Azərbaycanda elmi, iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması, tədqiqat universitetlərinin yaradılması məsələləri yeni qanun layihəsində nəzərə alınıb. **Yeni qanunla bağlı "Şərq"ə açıqlama verən təhsil üzrə mütəxəssis, professor Şahlar Əsgərov bildirib ki, ölkəmizdə tədqiqat universitetlərinin yaradılması çox yaxşı ideyadır.**

Ekspert vurğulayıb ki, ölkəmizdə təqribən 50-yə yaxın universitet var. Onların bəzilərinə təqdiqat universiteti statusunun verilməsi vacibdir: "Bu, ali təhsil sistemimizə çox yaxşı təsir edəcək. 2 illik təhsil ocağı kimi kolleclər, 4 və 6 illik ali məktəblər, bir də bəzi universitetlərə milli tədqiqat universitetləri adı veriləcək. Bu universitetlərə isə adi yox, ən intellektual müəllim və alimlər toplaşıb, böyük tədqiqatlar aparacaqlar".

*Ş.Əsgərovun sözlərinə görə, Rusiyada hər 20 universitetdən biri tədqiqat statusunu alıb:* "Azərbaycanda isə ən azı 50 universitetdən 3-4-ü bu statusu ala bilər. Tədqiqat universitetlərinə lazım olan iqtisadi yardım verilməsə, bunun heç bir əhəmiyyəti olmayacaq. Fikrimcə, Bakı Dövlət Universiteti (BDU), Azərbaycan Tibb Universiteti, Texniki Universitet və Azərbaycan Dövlət İqtisad Universitetinə tədqiqat statusu verib, maliyyələşmə və kadr seçimini dəyişsək, çox əhəmiyyətli nəticələr alacağıq".

**Yeganə Bayramova**

## Sadəcə, düşünərək yaza biləcəklər

İflic insanların da üzünə gün dogdu



**Neyrotexnologiya sahəsində çalışan "Brainscope" adlı bir şirkət, iflic olan insanlara heç bir cihaz bağlantısı olmadan, amma onların düşündüyünü tamamilə doğru yaza bilən bir kompüter hazırlayıb.**

"BrainGate" texnologiyasından istifadə edərək yaradılan beyin nəzarətində olan kompüter, ilk dəfə simsiz şəkildə insan beyninə qoşulub. Adıçəkilən şirkətin bu ixtirası iflic olan şəxslərin əllərindən istifadə edə bilən insanlar kimi yazmalarına imkan verəcək. Yazmaq üçün imkanı olmayan şəxslər həmin ixtira vasitəsilə sağlam insanların yazdığı kimi, hətta həmin sürətlə yaza biləcəklər. Bunun üçün tədqiqatçılar yeni araşdırmalarında 35 və 63 yaşlarında olan iki iflic xəstədən istifadə ediblər. Əvvəlcə onlar cihazı xəstələrin beyin neyronlarının birinə yerləşdiriblər. Oradan gələn siqnallar müvafiq dəqiqliklə ötürülür və eyni qaydada qeyd olunur.

*Qeyd edək ki, bu sistemdən iki iflic şəxs eyni anda 24 saat istifadə edə bilər.*

**Ağarza**

**Elan**

Rzayev Mirrza Yusif oğluna aid nikah haqqında şəhadətnamə, doğum haqqında şəhadətnamə və evinin çıxarış sənədləri itdiyinə görə etibarsız sayılır.

Arif Xəlilov ailə üzvləri ilə birlikdə əziz qohumu **Oqtay Vəliyevin** vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına dərin hüzünlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

## Koronavirus məktəblərdən yayılır

Ələsgər Məmmədli: "Ağır keçirdiyim bu xəstəliklə məhz məktəbdən yoluxan övladım vasitəsi ilə "tanış" oldum"



**"Sadəcə bizdə deyil, dünyanın bir çox yerində pandemiya təhsilə ciddi zərbə vurub. Bir ingilis araşdırmasında qeyd olunurdu ki, təhsilin pandemiya öncəki vəziyyətə dönməsi üçün 7 il lazımdır".**

"Şərq" qəzetinin xəbərinə görə, bunu media üzrə hüquqşünas Ələsgər Məmmədli feysbukda yazıb. Ekspert vurğulayıb ki, COVİD-in yayılmasında məktəblər də ciddi rol oynayır: "Mənim də çox ağır keçirdiyim bu xəstəliklə məhz məktəbdən yoluxan övladım vasitəsi ilə "tanış oldum". Unutmayaq, virusun yeni ştammı daha təhlükəli və öldürücüdür. Hər gün rəsmi statistikaya baxdıqda 20-30 insan itiririk. Halbuki, hamımız bilirik ki, istər yoluxma, istər ölüm statistikaya daxil olan rəqəmlərdən xeyli çoxdur. Təhsildə gecikməni, əksikləri zamanla bərpa etmək mümkündür. Lakin həyatını itirən dəyərli insanları bir daha geri gətirmək mümkün deyil. İnsan həyat mı, üz-üzə təhsil seçimi qarşısında qalarkən mən insan həyatını seçərdim. Təhsil Nazirliyinin qərarlarını bu baxımdan doğru hesab edirəm".

**İsmayıl**

# Vətəndaşın günahı deyil, sosial siyasət düzgün qurulmalıdır

## *İnsanlar uzun müddət saxta əlilliyə qazanc kimi baxıblar*



Nazirlər Kabinetinin 30 dekabr 2015-ci il tarixli 413 nömrəli qərarı ilə ölkə üzrə qüvvədə olan müddətli əlillik işləri hər hansı yoxlama olmadan, müayinələr aparılmadan avtomatik olaraq 5 il müddətinə uzadılıb.

Əlillik müddətinin bitməsinə aydınlıq gətirən nazir açıqlayıb ki, əlilliyə görə müddətin bitməsi əlilliyin ləğvi demək deyil.

**Mövzu ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, insanlar sözügedən məsələyə görə olduqca narahatdır:** "Əlilliyin vaxtının bitməsi ilə əlaqədar olaraq bu müddət tamamlandıqda əlilliyi olan şəxslər həkim komissiyasından keçməlidir. Ona görə də bu, əlilliyin ləğv olunması demək deyil. Ancaq vətəndaşların bu məsələdə narahatlığı ondan ibarətdir ki, sanki tibbi komissiyalara göstəriş verilib ki, əlilliyi müxtəlif bəhanələr gətirərək ləğv etsinlər. İnsanlarda bu fikirlər ciddi narahatçılıq yaradır. Deyirlər ki, gözü görməyən, yaxud bədəninin hər hansı əzası olmayan adam necə sağala bilər? Bu həm o şəxsə bürokratik əngəl, həm də əlavə xərcdir. Çünki vətəndaşların əksəriyyəti müxtəlif ərazilərdə məskunlaşıb, bəziləri qeydiyyatda olmayan yerlərdə yaşayırlar. Həmin tibbi komissiyalar da regionaldır və müəyyən mərkəzlərdə yerləşir. Hesab edirəm ki, bu məsələ daha liberal yollarla həllini tapmalıdır.

Əvvəlki dövrlərdə rüşvət vasitəsilə insanlar saxta əlillik dərəcəsi əldə edib. Bunun nəticəsində hər 100 000 əhalinin payına düşən əlillik sayı daha yüksəkdir. Lakin həmin hallar vətəndaşın günahı deyil. Bu, hökumətin apardığı sosial siyasətin nəticəsidir ki, insanlar gəlirlərini artırmaq, yaxud mövcud şəraitini düzəltmək, dolanmaq üçün əlilliyə qazanc yolu kimi baxıblar. Əhalini qınamaq əvəzinə buna səbəb olan məsələləri aradan qaldırmaq lazımdır. Hökumətin sosial siyasəti bir daha aydınlaşdırılmalıdır. Hər bir vətəndaşına yaşayış minimumu təmin etmək dövlətin borcudur".

**Aytac Ali**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Psixologiya və Para psixologiya** (3-12 ay)
**Tel: (012) 566-88-96**
**(012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd
Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru
Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073
Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 631

# Meymun fotoqrafı təqlid etdi





**İndoneziyada vəhşi həyatı çəkən Danimarkalı fotoqrafın başına maraqlı iş gəlib.**

Unikal.org bildirir ki, meymun fotoqrafın kamerasına rəhbərlik edib. Belə ki, meymun fotoqrafı təqlid edərək kameranın çərçivəsinə baxıb və kameranı sağa-sola hərəkətə gətirib. Fotoaparata həvəsli olan makak meymunu böyük diqqət çəkib.

# 7 km-lik gəlinlik...

## Ginnesin Rekordlar kitabına düşüb



**Kipr sakini dünyada ən uzun gəlinliyi ilə Ginnesin Rekordlar kitabına düşüb.**

Milli.Az Hindustan Times-a istinadən xəbər verir ki, Mariya Paraskeva uzunluğu 7 km-ə çatan baş örtüyü düzəldib. Bildirib ki, uşaqlıdan belə bir fata düzəldib Ginnesin Rekordlar kitabına düşmək arzusu olub. Bu arzusunu reallaşdırmaq üçün ona altı saat və 30 könüllü lazım olub. Bununla bağlı video 25 min "like" yığıb.

# "Kardeşlerim"ə yeni sima gəldi





**Türkiyənin böyük maraqla izlənən "Kardeşlerim" serialına yeni sima daxil olub.**

Ekran işində Çağla Şimşek də rol alacaq. Aktrisa "Ayşe" obrazına həyat verəcək.

*Qeyd edək ki, serial "ATV" telekanalında yayımlanır.*

# İki fotodakı fərq...

## Koronavirus təsir edib





**Artıq 1 ildən çoxdur ki, davam edən koronavirus pandemiyası insanları tanınmaz hala salıb.**

Medicina.az xarici KİV-ə istinadən xəbər verir ki, İspaniyada reanimasiya şöbəsinin tibb işçisi bir il ara ilə çəkilmiş iki fotoşəkili yan-yana paylaşaraq pandemiya ilə mübarizəni izah edib. Foto qısa zamanda böyük maraq doğurub. "Mən reanimasiyada çalışıram. Bu iki foto arasında bir il fərq var. Düşünürəm ki, üzümdəki dəyişiklik göz qabağındadır, daxilimdə nə olduğunu təsəvvür edə bilməzsiniz", - deyə o, qeyd edib.

# İsraildə son dərəcə nadir Misir tilsimi tapıblar



**İsraildə Negev səhrasının şimal-qərbində bir qrup turist arxeoloji qazıntıların aparıldığı ərazidə təxminən 3000 illik olduğu düşünülən son dərəcə nadir Misir tilsimi tapıblar.**

Sputnik Azərbaycan xarici mediaya istinadən xəbər verir ki, skarabey böcəyi şəklində olan nadir amuletin eramızdan əvvəl 9-8-ci əsrlərə aid olduğu düşünülür.

Mütəxəssislər qeyd edirlər ki, skarabey *(buna "ifrazat böcəyi" də deyilir)* qədim Misirdə müqəddəs sayılırdı. Ancaq belə tilsimlərdən yalnız misirlilər istifadə etmirdi - qonşu xalqlar da bu böcəkşəkilli həmayılın onları qoruya biləcəyinə inanırdı. Misirlilər isə skarabey böcəyinə Yaradanın təcəssümü kimi hörmət edirdilər.





# Dünyanın ən zəhərli ilanı ilə boğuşdu

## *Nikin ilanı yaxalamağa çalışması anları ətrafdakılar tərəfindən videoya çəkilib*



**Təcrübəli ilan ovçusu Nik Evans Güney Afrikada ölümcül hesab edilən qara mamba ilanını yaxalamağa çalışarkən qorxudan tir-tir titrədiyini və bunun çox əzablı olduğunu etiraf edib.**

3 metrə yaxın uzunluğundakı qara mamba dünyanın ən qorxunc, ən zəhərli ilanıdır. Qara mambanın zəhəri o qədər güclüdür ki, dişlədiyi insan dərhal müalicə olunmazsa, 6 saat içində həyatını itirir. Nik Evans çox sayda insanın ölümünə bais olmuş qara mambanın bir evə soxulduğu xəbərini alıb. Hadisə Güney Afrikanın Bellair bölgəsində baş verib. Ev sahibi həyətə soxulmuş ilanı kameraya çəkib və görüntüləri Nikə göndərib. Görüntülərdə təxminən 3 metrlik ilanın yaxınlığında iki xoruz da var. Nik yardım üçün çağırılan evə getdiyində ilan hər iki xoruzu artıq udubmuş. Nik ilanı yaxalamağa çalışıb. Nikin ilanı yaxalamağa çalışması anları ətrafdakılar tərəfindən videoya çəkilib. Videoda Nikin necə çətinlik çəkdiyi, zor anlar yaşadığı əksini tapır. Nəhayət ilanı tutduqdan sinra isə Nik rahatlanır və gülümsəyir. İlanın başını əlində tutaraq "bu çox böyükdür" deyir. İlanı yaxalamağa çalışarkən Nikin ortağı və dostu Dr.Cormac da orada imiş. Cormac yanlışlıqla elektrik şitinə toxunduqda kənara sıçrayıb, Nik isə dəhşətə qapılaraq dostunu ilanın sancdığını düşünüb: "Bu, çox dəhşət idi. Həqiqətən, çox ağır iş idi".

*Təcrübəli ilan ovçusunun qara mamba ilə ölüm-qalım savaşını əks etdirən video sosial mediada rekord sayda izləyici toplayıb.*

**Məlahət**

# Evimin yanından keçənlər heyran qalır

## Onun özəl hazırladığı heykəllər iş adamlarının evini və ofislərini bəzəyir





**Adnan Ceylan Antalyada təbiətdən topladığı odun və taxta parçaları ilə heykəllər düzəldir. Pandemiya səbəbilə emalatxanasını bağladıqdan sonra o işini indi öz həyətində davam etdirir.**

"Tullantıdan Sənətə" adlı sərgiyə 6 heykəllə qatılan Adnan Ceylan iş adamları Rahmi Koçla Ali Koçun ofisinə qartal və at heykəlləri hazırlayıb. Heykəltəraş karantində iş həyatına bəzi dəyişikliklər edib. Sənətkar son zamanlar evinin həyətində sənəti ilə məşğul olur.

*Adnan bəy heykəl düzəltməklə yanaşı həm də "bonsai" adlı sənətlə də məşğuldur. Bitkilərə müxtəlif forma verən heykəltəraş bunu yapon bir sənətçidən öyrəndiyini deyib:*

"Mən təkrar emalçıyam. Topladığım ağac qırıntıları, taxtalarla işləyir, onlardan heykəllər düzəldirəm. Pandemiyaya görə həm mağazamı, həm də emalatxanamı bağladım. Bu vəziyyət bütün sənətçilərə təsir göstərib. Sərgilər olmur, otellər qapanıb. Antaliyada vəziyyət bir az kritikdir. Amma mən hər şeyin düzələcəyinə inanıram. Bu dönəmdə heykəllərimi həyətimdə davam etdirirəm, heykəllərim isə bir sıra yerlərdə sərgilənir".

**Taxta parçalarını, tullantıları heykəllərə çevirən Adnan bəy bu işə sənətkar gözü ilə baxdığını deyir :**

"Özəl heykəllər də düzəldirəm. Onlar tanınmış iş adamlarının evində və ofislərindədir. Təkrar emal ölkəmiz üçün olduqca vacib bir məsələdir. Mən isə bu işə sənətkar kimi yanaşıram. Yapon ustadan dərs alan A.Ceylan bitkilərə də müxtəlif formalar verir: "Rəqəmsal bir dövrdə yaşayırıq. Bu isə bizim həyatımıza bir çox yeniliklər qazandırır. Pandemiya dövründə evə qapanıb, gün saymaq yerinə yapon bonsai sənətçisinin onlayn dərslərində iştirak etdim. Hazırda isə həyətdəki bir çox bitkilərimdə bonsai formalarını görmək mümkündür. Vaxt tapdıqca bitkilərə müxtəlif formalar verir və inkişaf etmələrini izləyirəm. Hər şeyə bir cəhdlə başladım. Evimin yanından keçən insanlar şəkilləndirdiyim bitkilərə heyran qalır".

**Aytac Ali**